Xalqın qəzeti!

# Xalq qəzeti

№ 132 (30248) 23 iyun 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır. Dövlət qulluqçusu həmişə xatırlamalıdır ki, o, xalqın xidmətçisidir, insanlara xidmət, onların qayğıları ilə yaşamaq onun əsas vəzifəsidir.

## Azərbaycan–Qazaxıstan: dost xalqlar, tərəfdaş ölkələr



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Qazaxıstanın Baş naziri Alixan Smailovu qəbul edib.**

Azərbaycanla Qazaxıstan arasında münasibətlərin strateji xarakter daşıdığını deyən dövlətimizin başçısı əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, ikitərəfli münasibətlərin gündəliyinin geniş olduğunu bildirdi.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ötən il Azərbaycana, özünün isə bu il Qazaxıstana səfəri zamanı əldə edilmiş razılıqların uğurla həyata keçirildiyini və onların icrasının daim diqqətdə saxlanıldığını bildirən Prezident İlham Əliyev bunu əməkdaşlığımızın yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin regional əməkdaşlıq, o cümlədən Xəzər hövzəsində və daha geniş məkanda əməkdaşlıq üçün böyük önəm daşıdığını qeyd etdi. Azərbaycan Prezidenti bu əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu dedi, bütün bunların ticarət dövriyyəsinin həcminin artırılması, əlavə biznes imkanlarının yaradılması, energetika, nəqliyyat və digər sahələrdə böyükmiqyaslı layihələrin həyata keçirilməsi işinə xidmət etdiyini vurğuladı.

Prezident İlham Əliyev Alixan Smailovun səfərinin ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi.

Xoş sözlərə görə minnətdarlıq edən qonaq Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kasım-Jomart Tokayevə çatdırmağı xahiş etdi.

Alixan Smailov qarşıdan gələn Qurban bayramı münasibətilə dövlətimizin başçısına və dost Azərbaycan xalqına təbriklərini çatdırdı.

Bu il ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunduğunu vurğulayan qonaq Ulu öndərin Qazaxıstana həmişə səmimi dostluq münasibətləri bəslədiyini dedi, bu il Astanada Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakı ilə Heydər Əliyev küçəsinin açılışını ölkələrimizin və xalqlarımızın birliyinin təcəssümünü bir daha nümayiş etdirdiyini bildirdi.

Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin xatirəsinə olan hörmətə görə təşəkkürünü ifadə etdi, bunun Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirildiyini dedi.

Azərbaycanla Qazaxıstan arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını bildirən və bütün sahələrdə əməkdaşlığımızın uğurla inkişafından məmnunluğunu ifadə edən Alixan Smailov qarşılıqlı fəaliyyətimizin strateji tərəfdaşlığa əsaslanan münasibətlərimizin göstəricisi olduğunu vurğuladı. Qazaxıstanın Baş naziri əməkdaşlığın müxtəlif sahələrdə möhkəmlənməsi işinə Azərbaycan Prezidentinin verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Ölkəmizin Qazaxıstan üçün Cənubi Qafqazda ən mühüm iqtisadi-ticarət tərəfdaşı olduğunu söyləyən qonaq ötən ilin nəticələrinə görə qarşılıqlı ticarətin həcminin 460 milyon dolları keçərək 40 faiz artdığını, bu il də bu dinamikanın davam etdirildiyini məmnunluqla bildirdi və potensialın daha da artırılması üçün imkanların olduğunu vurğuladı.

Görüşdə Qazaxıstan tərəfindən Füzuli şəhərində uşaqlar üçün Yaradıcılığın İnkişafı Mərkəzinin inşası yüksək qiymətləndirildi, hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu, ölkələrimiz arasında neft, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, gəmiqayırma, humanitar və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Son dövrlərdə Xəzər dənizindən Orta Dəhliz vasitəsilə Azərbaycan və Qazaxıstan, həmçinin üçüncü tərəflərin bu marşrut istiqamətində yüklərinin həcminin çoxalması məmnunluqla qeyd edildi, bu istiqamətdə ölkələrimizin birgə səylərinin artırılmasının vacibliyi vurğulandı.

Söhbət zamanı dost ölkə Qazaxıstan şirkətlərinin də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində müxtəlif layihələrdə iştirakı perspektivləri müzakirə olundu.

***AZƏRTAC***

## Sülhün addım səsləri eşidilir



**Cənubi Qafqazda, o cümlədən, bölgədə istər təbii yolla baş verən proseslər, istərsə də qəsdən törədilən təxribatlar birbaşa Rusiyanın nəzarəti altındadır. Həm bölgədəki separatçılar, həm də İrəvandakı daşnak-revanşist qüvvələr Kreml ilə birbaşa bağlıdırlar. Məhz Kremldən verilən təlimatların nəticəsində Bakı ilə reinteqrasiyaya meyilli ermənilərdə qorxu yaratmaq mexanizmi işə salınıb. İki ay bundan əvvəl guya, Azərbaycana casusluq etmək ittihamı ilə həbs olunan bir neçə erməninin, əslində, barışığa meyilli kəsimin nümayəndələri olduqları artıq şübhə doğurmur. İndi Qarabağın erməni icmasının sülhə hamıdan çox ehtiyacı var və bunu Xankəndidəki separatçı rejimin qondarma başçılarının üzlərinə söyləməyə başlayıblar.**

**(ardı 3-cü səhifədə)**

## Qeyri-neft ixracı artır



Səhifə ⇨ 7

## Paşinyan yalanın sərhədini itirib

**Ermənistan baş naziri Nikol Paşinyan ənənəsinə sadiq qalaraq Azərbaycanın ünvanına böhtanlar yağdırıb. Hökumətin dünən keçirilən iclasında qeyd edib ki, guya, Qarabağda humanitar böhran kəskinləşməkdədir. Onun iddiasına görə, Beynəlxalq Ədalət Məhkəməsinin aralıq qərarına baxmayaraq, Laçın yolunun qeyri-qanuni bloklanması davam edir: “Laçın yolundan nə vətəndaşlar, nə nəqliyyat vasitələri, nə də yüklər keçir.**



Hətta, Beynəlxalq Qırmızı Xaç Komitəsinin avtomobillərinə də qadağa qoyulub. Bunlar Qarabağdakı və Laçın yolundakı vəziyyətdən danışan qüvvələrin və ölkələrin, guya, Azərbaycanın daxili işlərinə qarışması ilə bağlı Bakının arqumentləri ilə ziddiyyət təşkil edən mühüm faktlardır. Beynəlxalq Ədalət Məhkəməsinin qərarının yerinə yetirilməməsi və məhkəmənin qərarının icrasının təmin edilməsi beynəlxalq gündəm məsələsidir və problemə bu məntiqlə yanaşmaq lazımdır”.

**(ardı 3-cü səhifədə)**

## Muğamsevərlərin böyük bayramı



Səhifə ⇨ 9

## Təravətini saxlayan xanım-xatın poeziya



Səhifə ⇨ 9

## Dünya erməniliyi Bakı–İrəvan danışıqlarının Qərb xəttinə qarşıdır

**Azərbaycanın Laçın yolundakı Həkəri körpüsündə sərhəd nəzarət-buraxılış məntəqəsi qurması ABŞ-dakı və Avropadakı ermənipərəstləri hərəkətə gətirib. Əslində, bu, demokratiya şarlatanlarının sözügedən məsələ ilə əlaqədar ölkəmizə qarşı “cəbhə” açmalarına dair ilk hadisə deyil. Söhbət Birləşmiş Ştatlardan gedirsə, ölkə Konqresinin ermənipərəst damarı müntəzəm şəkildə tutur. Eləcə də, Avropada mahnılarını erməni notlarına kökləyənlər az deyil. Belələrinə, bir növ, öyrəncəliyik. Sadəcə, onların bildirdiklərinə əhəmiyyətsiz yanaşıb üzərindən keçmək istəmirik və keçməyəcəyik.**

*(ardı 4-cü səhifədə)*

## Nağdsız ödənişə keçid sürətlənir



Səhifə ⇨ 7

## Gədəbəydəki qızıl yatağını istismar edən şirkət kimindir?



Səhifə ⇨ 8

## 61 rayonda biçin gedir



Səhifə ⇨ 10

## AŞPA-nın qərəzli müzakirəsi Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlib



Səhifə ⇨ 8

## Qatilə azadlıq, dumanda yolunu azana 20 il cəza

Səhifə ⇨ 4

## Qurbanlıq kəsimlərə nəzarət ediləcək

Səhifə ⇨ 10

# Dövlət qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

### "Tərəqqi" medalı ilə

Abasov Azim Heydər oğlu
Ağayev İsa Məhəmməd oğlu
Babayev Elxan İbrahim oğlu
Bağırov Həsən Sədrəddin oğlu
Cavadov Şahverən Böyükağa oğlu
Eldarova Rəna Sabirovna
Əhmədov Nuru Hüseynqulu oğlu
Əhmədov Sahib İbrahim oğlu
Əmrahov Arif Həbulla oğlu
Əsədov Əsəd Əlastan oğlu
Əsədova Sədaqət Şamil qızı
Əzizov Əlizamin Qoca oğlu
Həsənova Rahilə Əmirəhməd qızı
Hüseynov Şahin Şahalı oğlu
İbişov Vidadi Behbud oğlu
İsayev Ramiz Mirzağa oğlu
İslamov İsmayıl Nadir oğlu
Qorçiyev Rafiq Alış oğlu
Quluzadə Rasimə Xasay qızı
Qurbanov Turab Dilsuz oğlu
Maxsudov Asəf Sadulla oğlu
Məmmədov İlkin Əfqan oğlu
Mönsümov Nizami İsmayıl oğlu
Namazov Ramid Zakir oğlu
Niftəliyev Həsən Kərim oğlu
Osmanov Ramil Məhəmməd oğlu
Rüstəmova Nəzakət Carullah qızı
Sultanov Sabir İsmayıl oğlu
Taptıqov Rövşən Ağagül oğlu
Tutayuk Fərhad Xaspolad oğlu
Ukleina Yekaterina Vasilyevna
Vəliyev İkram Sabir oğlu

### "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə

Abbasov Emil İlqar oğlu
Abbasov Zaur Firidun oğlu
Abdullayev Şaban Ənvər oğlu
Abdullazadə Hüseyn Abdulla oğlu
Adıgözəlov Elçin Məmmədhəsən oğlu
Ağayev Ayaz Yengibar oğlu
Ağayev Aydın Tapdıq oğlu
Ağayev Azad Qabil oğlu
Ağayev Qafar Akif oğlu
Ağayev Pərviz İsmət oğlu
Ağayeva Leyli Fərid qızı
Ağayeva Samirə Həmidulla qızı
Alıyev Nazim Əyyub oğlu
Alıyeva Könül İsmət qızı
Allahverdiyev Hamlet Naşir oğlu
Aslanov İlkin Cəfər oğlu
Atayeva Aynur Əliabbas qızı
Babayev Mirbaba Sultan oğlu
Babayeva Arzu Elxan qızı
Babayeva Mehriban Eldar qızı
Bağıyeva Mətanət Nəbi qızı
Baxşəliyev Akif Hidayət oğlu
Balayev Sərdar İsmixan oğlu
Balayeva Çinarə İsa qızı
Bayramov Azər Arif oğlu
Bayramov Natiq Salman oğlu
Bayramov Orxan Fərhad oğlu
Bayramov Ucal İbrahim oğlu
Bilalova Sevinc Bahadur qızı
Cahangirov Xasay Xasay oğlu
Cavadov Amil Rafiq oğlu
Cavadova Məhluqə Əbil qızı
Cavadzadə Sevinc İsa qızı
Cəbrayılov Elşən Yaqub oğlu
Cəbrayılov Ramiz Məhərrəm oğlu
Cəfərov Fərid Hadı oğlu
Cəfərov İsmayıl Ramiz oğlu
Çələbiyeva Elnarə Niyazi qızı
Dadaşov Mahir Tofiq oğlu
Dilbazova Fənarə Bahadur qızı
Eyvazova İlahə Abbas qızı
Eyvazzadə Nicat İmran oğlu
Əhədov İlqar Zakir oğlu
Əhədov Zamiq Abdulla oğlu
Əhmədov Ağa-Əli Əliösət oğlu
Əhmədov Rəşad Şirin oğlu
Əhmədova Güllü Nizami qızı
Əhmədova Lalə Kərim qızı
Əli Nərmin Asif qızı
Əliyev Aqibət Qiyasalı oğlu
Əliyev Anar Şakir oğlu
Əliyev Arzu Əhməd oğlu
Əliyev Elşad Ərşad oğlu
Əliyev Etibar Salman oğlu
Əliyev Əkbər Zamiq oğlu
Əliyev Əlixan Fərman oğlu
Əliyev Kənan Arif oğlu
Əliyev Rəşad Zəbərxan oğlu
Əliyev Rövşən Roman oğlu
Əliyev Vasif Vaqif oğlu
Əliyeva Məlahət Rasim qızı
Əmənov Tofiq Ərəstun oğlu
Əminov Dəyanət Abdulməcid oğlu
Əmirmətov Emil Balaqadaş oğlu
Əsədov Ramil Alməmməd oğlu
Əsgərov Məmməd Xubali oğlu
Fərəcova Səbinə Çingiz qızı
Güləhmədov Mübariz Güləhməd oğlu
Hacıyev Əyyub Vaqif oğlu
Hacıyeva Gülnarə Rauf qızı
Heraçiyev Mohuma Əhməd oğlu
Hənifəzadə İbrahim Məhərrəm oğlu
Həsənov Aftandil Afət oğlu
Həsənov Azər Əliağa oğlu
Həsənov Ceyhun Rafiq oğlu
Həsənov Həsən Abdulla oğlu
Həsənov Mizam Sərdər oğlu
Həsənova Lalə Şahvar qızı
Həsənova Məlahət Mahmud qızı
Həşimov Fail Akif oğlu
Hümbətov Əhməd Ramazan oğlu
Hümbətov Fuad Dursun oğlu
Hüseynov Ağahüseyn Sabir oğlu
Hüseynov Azər Ədalət oğlu
Hüseynov Cavid Həmid oğlu
Hüseynov Ceyhun Həsən oğlu
Hüseynov Rəşad Qadir oğlu
Hüseynov Sərdar Tofiq oğlu
Hüseynova Şəlalə Elxan qızı
Xankişiyev Xanbaba Nizami oğlu
Xəlilova Mehriban Ağahüseyn qızı
İbrahimov Əhliman Tofiq oğlu
İsayev Rövşən Dadaş oğlu
İsgəndərov İrfan Xalid oğlu
İsmayılov Vüqar Xeyrulla oğlu
İsmayıl-zadə Xatirə Qulam qızı
Kazımov Tahir Seyidağa oğlu
Kərimli Azər Arif oğlu
Qafarova Elmira Sabir qızı
Qaralov Ruslan Ramiz oğlu
Qasımov Miryusif Abdulla oğlu
Qasımova Tahirə Adil qızı
Qədimquliyev Ramil Eyyub oğlu
Qədimov Orxan Elxan oğlu
Quliyev Azad Həsən oğlu
Quliyev Emil Zahid oğlu
Quliyev Fərid Eldar oğlu
Quliyeva Sevil Fikrət qızı
Mahmudov Eldar Gülağa oğlu
Mahmudov Ramiz Şamil oğlu
Manafov Sadıx Söynalı oğlu
Manafova Ülkər İlqar qızı
Mehbalıyev Emin Cabir oğlu
Mehdiyev Anar Gəncixan oğlu
Mehdiyev Faiq Fərman oğlu
Məcidli İlqar Tofiq oğlu
Məlikov Rüstəm Muxtar oğlu
Məmmədəliyeva Bətulə Ədhəm qızı
Məmmədli Nazəni Hüseyn qızı
Məmmədli Nicat Yunis oğlu
Məmmədov Adil Aydın oğlu
Məmmədov Akif Yaqub oğlu
Məmmədov Ceyhun Abasət oğlu
Məmmədov Elmar Eldar oğlu
Məmmədov Elnur Eldar oğlu
Məmmədov Fərid Rafiq oğlu
Məmmədov Kənan Kamil oğlu
Məmmədov Mehman Nəbi oğlu
Məmmədov Nəsimi Misgər oğlu
Məmmədov Ramal Yahya oğlu
Məmmədov Ramin Nemət oğlu
Məmmədov Sabit Rasim oğlu
Məmmədov Şahin Məmmədağa oğlu
Məmmədov Vəli Məmməd oğlu
Mirbağırova Tahirə Ramazan qızı
Mirzəyeva Gültəkin İnqlab qızı
Mirzəyeva Nərmin Rüfət qızı
Mirzəzadə Pərvanə Yaşar qızı
Mövsümova Ülviyyə Zakir qızı
Muradov Vüqar Sultan oğlu
Musayev Azad Əlibaba oğlu
Musayev Ceyhun Surxay oğlu
Mustafayev Pərviz Yusif oğlu
Nağıyev Natiq Fəhrad oğlu
Nəcəfov Samir Vəliyəddin oğlu
Nəcəfova Zərifə Ağa Rza qızı
Nəsibov Həmid Seyfəddin oğlu
Nuriyev Çingiz Faiq oğlu
Orucov Anar Bayram oğlu
Ömərova Nüşabə Hacıağa qızı
Ramazanov Zaur Nikolayeviç
Rəhimova Nazilə Əvəz qızı
Rüstəmov Abbasəli Məhəmməd oğlu
Rüstəmova Gülnarə Sabir qızı
Rzayev Bayram Ağarza oğlu
Rzayev Xalid Məhərrəm oğlu
Rzayeva Aysel İbadət qızı
Salamzadə Lalə Həsrət Qulu qızı
Salayev Natiq Səxavət oğlu
Salmanov Hilal Şirinbala oğlu
Salmanov Sadiq Həsən oğlu
Salmanova Nəzakət Ənvər qızı
Seyidli Bəhruz Dadaş oğlu
Səfərov Elməddin Əkbər oğlu
Səfərov Fəqan Yaşar oğlu
Səfərova Sevinc Mobil qızı
Səmədov Rəvan Tohid oğlu
Süleymanov İlqar Xalid oğlu
Süleymanova Sevinc Məhəmməd qızı
Şamilov Həsən Nazim oğlu
Şıxməmmədov Vüqar Fevral oğlu
Tağı-zadə Gülarə Tağı qızı
Tapdıqlı Yusif Qabil oğlu
Verdiyev Şahmar Niyazi oğlu
Vəliyev Adil Seyfəddin oğlu
Vəliyev Anar Afiq oğlu
Vəliyev Rəşid Valeh oğlu
Yəhyayeva Solmaz Oktyabr qızı
Yusifov Rövşən Əlfrat oğlu
Yusifov Vidadi Vaqif oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 iyun 2023-cü il**

# "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1942 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dəyişikliklər edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il üçün büdcəsinin gəlirlərini və xərclərini dəqiqləşdirmək məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1942 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1452) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə "8 990 947,2" və "11 392 336,5" rəqəmləri müvafiq olaraq "16 337 500,0" və "11 850 036,5" rəqəmləri ilə əvəz edilsin;

1.2. 2-ci hissə üzrə:

1.2.1. 2.1-ci bənddə "Gəlirlərin məbləği (min manat)" sütununda "6 571 387,3" rəqəmləri "11 765 793,3" rəqəmləri ilə əvəz edilsin;

1.2.2. 2.2-ci bənddə "Gəlirlərin məbləği (min manat)" sütununda "4 307,8" rəqəmləri "3 600,6" rəqəmləri ilə əvəz edilsin;

1.2.3. 2.3-cü bənddə "Gəlirlərin məbləği (min manat)" sütununda "23 590,0" rəqəmləri "15 323,3" rəqəmləri ilə əvəz edilsin;

1.2.4. 2.4-cü bənddə "Gəlirlərin məbləği (min manat)" sütununda "1 590 905,4" rəqəmləri "3 752 026,1" rəqəmləri ilə əvəz edilsin;

1.2.5. "Gəlirlərin məbləği (min manat)" sütununun "Cəmi" sətrində "8 990 947,2" rəqəmləri "16 337 500,0" rəqəmləri ilə əvəz edilsin;

1.3. 3-cü hissə üzrə:

1.3.1. 3.1-ci bəndin "Xərclərin məbləği (min manat)" sütununda "11 280 000,0" rəqəmləri "11 737 700,0" rəqəmləri ilə əvəz edilsin;

1.3.2. "Xərclərin məbləği (min manat)" sütununun "Cəmi" sətrində "11 392 336,5" rəqəmləri "11 850 036,5" rəqəmləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Dövlət Neft Fondu bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 iyun 2023-cü il**

# Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsinin icrası haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə"yə və 2001-ci il 12 sentyabr tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları"na müvafiq olaraq Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsinin icrası ilə bağlı hazırlanmış hesabata dair Dövlət Neft Fondunun Müşahidə Şurasının və Azərbaycan Respublikası Hesablama Palatasının rəylərini və Dövlət Neft Fondunun maliyyə fəaliyyətinin beynəlxalq auditor təşkilatı tərəfindən keçirilmiş auditinin nəticələrini nəzərə alaraq **qərara alıram**:

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsinin icrası, gəlirlər 16 866 540,3 min manat, xərclər 7 988 335,2 min manat və ya Fondun 2022-ci il büdcəsində nəzərdə tutulana nisbətən gəlirlər üzrə 106,8 faiz, xərclər üzrə 68,9 faiz səviyyəsində olmaqla, aşağıdakı kimi təsdiq edilsin:

| Sıra №-si | Göstəricilər | Məbləğ (min manatla) |
|---|---|---|
| | **Gəlirlər, cəmi:** | **16 866 540,3** |
| | o cümlədən: | |
| 1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəqli üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 19 698 890,7 |
| 2. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar müqavilə sahəsindən istifadə üçün sərmayəçilərin akrhesabı ödənişləri | 5 578,3 |
| 3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlir | 4 212,8 |
| 4. | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlir (zərər) | (3 613 844,6) |
| 5. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar | 768 703,1 |
| | **Xərclər, cəmi:** | **7 988 335,2** |
| | o cümlədən: | |
| 1. | Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinə transfert | 7 923 000,0 |
| 2. | Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 15 236,3 |
| 3. | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019– 2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 22 203,3 |
| 4. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 27 895,6 |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 iyun 2023-cü il**

# Çexiya–Azərbaycan parlamentləri arasında münasibətlər genişlənir



**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 22-də ölkəmizdə səfərdə olan Çex Respublikası Parlamentinin Deputatlar Palatasında Çexiya–Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşüb.**

O, bu səfərin iki ölkənin qanunvericilik orqanları arasında münasibətlərin genişlənməsinə töhfə verəcəyinə ümidvar olduğunu deyib. Görüşdə parlamentlərimizin dostluq qrupları arasında təmasların, qarşılılqlı səfərlərin əhəmiyyəti ilə bağlı fikirlər səsləndirilib. Azərbaycanın Avropanın etibarlı enerji təchizatçısı və mühüm iqtisadi tərəfdaş ölkə olaraq əldə etdiyi nailiyyətləri diqqətə çatdırılıb.

Bildirilib ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərdə ermənilər tərəfindən dağıdılmış bütün infrastrukturu, şəhərləri, kəndləri yenidən tikir, bərpa edir. Bununla yanaşı, işğal dövründə və üçtərəfli bəyanatın imzalanmasından sonrakı müddətdə Ermənistan tərəfindən ərazilərin minalanmasının işğaldan azad olunmuş torpaqlarda bərpa – quruculuq işlərinə yaratdığı maneə və təhlükələr diqqətə çatdırılıb. Həmçinin Azərbaycanın sülh istədiyi, Ermənistanla sülh sazişinin imzalanması təşəbbüsünü irəli sürdüyü, hazırda sülh danışıqlarının davam etdiyi bildirilib.

Çex Respublikası Parlamentinin Deputatlar Palatasında Çexiya–Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Yan Kubik Azərbaycana, o cümlədən, işğaldan azad olunmuş Ağdam rayonuna səfərləri, keçirdiyi görüşlərlə bağlı təəssüratlarını bölüşüb. O, ölkələrimiz haqqında həqiqətlərin, məlumatların ictimaiyyətə doğru çatdırılması, parlamentlərimiz arasında əlaqələrin genişləndirilməsi baxımından bu cür səfərlərin önəmini qeyd edib.

***Ə.BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# Qurban bayramı iyunun 28-nə təsadüf edəcək

**Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası dünən Qurban bayramı ilə bağlı fətva verib.**

"AMEA Şamaxı Astrofizika Rəsədxanasının 2023-cü il hesablamalarına əsasən Azərbaycan üfüqündə Hilalın görünməsinə uyğun olaraq builki Qurban bayramı Zilhiccə ayının 10-na – Miladi təqvimlə iyunun 28-nə təsadüf edəcək. Şəriətə uyğun olaraq Qurban kəsimi həmin tarixdən başlayaraq 3 gün davam edə bilər. İyun ayının 28-də məscidlərimizdə Bayram namazı qılınacaq...

Əziz qardaş və bacılar! Hədislərdə qeyd olunduğu kimi, Qurban bayramının gecəsi və günü duaların Allah-təala tərəfindən qəbul olduğu zamandır. Bu niyyətlə bu il anadan olmasının 100 illiyini qeyd etdiyimiz, dövlətçiliyimizin qurucusu Ulu Öndər Heydər Əliyevi rəhmətlə yad edir, dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin, eləcə də ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın misilsiz fəaliyyətlərinə Azərbaycan dindarlarının xeyir-dualarını çatdırır, bu mübarək günlərdə onlara və ailələrinə ən böyük İlahi nemət olan cansağlığı diləyirik.

Qafqaz Müsəlmanları İdarəsi və Qazılar Şurası müqəddəs Qurban bayramı münasibətilə dünya müsəlmanlarını və Azərbaycan xalqını, Zəfər sevincimizdə payı olan şanlı Ordumuzun əsgər və zabitlərini təbrik edir, Allah, Vətən və Zəfər uğrunda canlarını qurban edən şəhidlərimizə rəhmət, qazilərimizə şəfa arzulayır. Allah-Taala dövlətimizə qüdrət, xalqımıza əzəmət, süfrələrimizə bərəkət bəxş etsin! Dua və ibadətləriniz qəbul, Qurban bayramınız mübarək olsun!", – deyə QMİ-nin fətvasında bildirilib.

# Mövqelərimiz atəşə tutulub

**İyunun 22-si saat 02:15-də Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Brun yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Laçın rayonunun Əhmədli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, bundan başqa, iyunun 21-i saat 23:05-dən iyunun 22-si saat 08:15-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Azərbaycan Ordusunun Xocavənd, Şuşa və Xocalı rayonları istiqamətlərində yerləşən mövqelərini də atıcı silahlardan fasilələrlə atəşə tutublar.

Bölmələrimiz tərəfindən qeyd olunan bütün istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Həmçinin qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri kənd təsərrüfatı işləri adı altında ordumuzun Ağdam və Xocalı rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Azərbaycan Ordusunun bölmələrinin gördükləri təxirəsalınmaz tədbirlər nəticəsində aparılan mühəndis işləri dərhal dayandırılıb.

* * *

"İyunun 22-si saat 13:00 radələrində Azərbaycan Ordusunun bölmələrinin Ağdərə rayonu istiqamətində atəş açması nəticəsində qeyri-qanuni erməni silahlı dəstələrinin bir üzvünün

yaralanması barədə sorğuya cavab olaraq bildiririk ki, bölmələrimiz qeyd olunan istiqamətdə atəş açmayıb", – məlumatda qeyd edilib.

***"Xalq qəzeti"***

# Sülhün addım səsləri eşidilir

## İki, üç, beştərəfli danışıqların xarakteri və miqyası bölgəyə tezliklə sülhün gələcəyindən xəbər verir

*(əvvəli 1-ci səhifədə)*

### “Həssas məsələ”yə eyhamlı münasibət

Görünən dağa bələdçi nə gərək, – deyib atalarımız. Moskvanın həm Qarabağ münaqişəsinin davam etdiyi otuz ilə yaxın müddətdə, həm də hazırki post-müharibə dövründə problemin köklü həllində maraqlı olmamasının səbəbləri hər iki tərəfə məlumdur. Qərbli rəqibləri ilə Cənubi Qafqazda nüfuz davası aparan Rusiyadan verilən təlimatların nəticəsində Azərbaycanla reinteqrasiya prosesində iştirak etmək istəyən Qarabağın erməni sakinləri qorxu və qeyri-məyyənlik içindədirlər. Amma ortada sülh danışıqlarında əsas vasitəçi sayılan aktorun zorən nəzərə almalı olduğu Türkiyə amili var. Rusiya XİN-in sözçüsü Mariya Zaxarovanın həftəlik ənənəvi brifinqində verdiyi məlum açıqlaması da məhz bu amilin mövcudluğunun dolayısı ilə etirafıdır. M.Zaxarova deyib ki, Şuşada Türkiyə konsulluğunun açılması məsələsi Bakı ilə Ankaranın ikitərəfli əlaqələrinin mövzusudur. O, eyni zamanda, Moskvanın bu məsələnin Ermənistan üçün həssaslıq dərəcəsini başa düşdüyünü də vurğulayıb: “Harada baş verməsindən asılı olmayaraq, konsulluğun açılması kimi məsələ, xüsusən də Şuşada, bu, Bakı ilə Ankaranın ikitərəfli əlaqələrinin mövzusu olaraq qalır. Bəli, bu, iki suveren dövlətin səlahiyyətində olan məsələdir. Biz qarşılıqlı təmaslarda tərəflərin maraqlarının nəzərə alınması zərurətini, həm Ermənistan–Azərbaycan, həm də Ermənistan–Azərbaycan–Türkiyə münasibətlərinin normallaşması prosesinin vacibliyini daim önə çəkirik”.



Xanım Zaxarovanın Şuşada Türkiyənin konsulluğunun açılacağı ilə bağlı məsələyə yüngül eyhamlı diplomatik açıqlaması onun mövqeyini ifadə etdiyi Kremlin bu məsələyə dözümlü yanaşmasının əlamətidir.

### Əngəlyaratma missiyası bitməlidir

Ermənistan və Azərbaycan yetkililərini sülh masasının arxasına əyləşdirməyə çalışan ABŞ bu yöndə təşəbbüslərini durmadan artırır. Gələn həftə ikitərəfli dialoqun Vaşinton platformasında Azərbaycan və Ermənistan XİN başçılarının ikitərəfli görüşünün ardınca Ağ Evin sülhyaratma missiyasındakı avropalı şəriki Avropa İttifaqı 12 iyul sammitinə ciddi hazırlıq görür. Moskvanın isə qarşıdakı sülh uğrunda savaşdan da, elə sülhün özündən də çəkindiyi hiss olunmaqdadır. Bu səbəbdən onun ünvanına artıq Ermənistandan da ittihamlar səslənməkdədir. Son vaxtlar Hayastanın rəsmi mediasında “Cənubi Qafqazda sülhü və sabitliyi istəməyən tək dövlət Rusiyadır” məzmunlu çıxışların sayının artması da təsadüfi deyil. Rusiyanın vasitəçilik missiyasına şərik olanlar ona qarşı hər cür təzyiq üsullarından istifadə edirlər. Şübhəsiz, bunu Bakıda da yaxşı anlayırlar. Sülh müqaviləsinin imzalanması məsələsində təşəbbüskarlardan hansının səmimi, hansının isə qeyri-səmimi, riyakar olduğunun fərqindəyik. Gizlədilməsi mümkün olmayan həqiqət ondan ibarətdir ki, Moskvanın sülhə aparan danışıqları süni şəkildə uzatması, bunun üzərində imitasiya etməsi 2020-ci il 10 noyabr Bəyanatının 4-cü bəndinə ziddir. Onun üç ilə yaxındır ki, Qarabağdan Ermənistanın qanunsuz silahlı birləşmələrini çıxarmaq istəməməsini, əksinə, onların bölgədə qalmalarına hər cür kömək göstərməsini də detallarına kimi bilirik. Əslində, iki qonşu ölkə və xalq arasında sülhün yaranması üçün Kremlin əlində həmişə imkan və vasitələr olub. Amma təəssüflər olsun ki, Kreml həmin imkanlardan yalnız bölgədə mövcudluğunu saxlamaqdan ötrü sui-istifadə edib. Vəziyyət keçən əsrdə də belə olub, XXI əsrdə də belədir. Sonda bunu Moskvaya çox güvənən ermənilər də anlamağa başladılar.

### Arqumentlər və faktlar

Tevos Arşakyan adlı erməni politoloq “armenianreport.com”-da yazdığı məqaləsində deyir: “Ola bilsin ki, erməni və Azərbaycan xalqları öz aralarında ümumi dil tapa, bir-biri ilə razılığa gələ bilərdilər. Axı, necə olsa da, biz qonşuyuq, bu bölgədə yanaşı yaşamağa məcburuq. Təəssüf ki, Moskva buna imkan vermədi. Tərəflər öz aralarında konstruktiv danışıqlara meyillənəndə, nəyisə razılaşdırmaq perspektivinə ümidlər yaranan kimi dərhal hər şeyin üstündən yağlı qara xətt çəkilir, fors-major hadisələr yaşanır. Məsələn, şərti sərhəddə, təmas xəttində hər iki tərəfdən insan itkiləri ilə müşayiət olunan növbəti silahlı insident baş verir. Eynən o zaman Ter-Petrosyanın devrilməsi, və ya Ermənistan parlamentinin güllələnən edilməsi hadisələri kimi...”

Bu məsələdə erməni politoloqu ilə razılaşmamaq olmur. Çünki ortaya arqumentlərini və faktları qoyur. Məntiqi də öz yerində. Həm də bizim dediyimizi deyir. Yəni, Hayastanın indiki hakimiyyətindən, eləcə də cəmiyyətindən güclü iradə tələb olunur ki, bundan sonra Moskvanın bitib-tükənməyən siyasi oyunlarına “maşa” olmasın. Üzünü sülhün təminatçısı rolunu oynamağa hazır Qərbə çevirsin, Azərbaycanla sülh müqaviləsini imzalasın. Gələcəyini də Türkiyə və Azərbaycanın yanında duraraq qursun. İrəvan iqtidarı gec də olsa anlamalıdır ki, onun nicatı yaxın iki qonşusu ilə münasibətləri normallaşdırmadadır. Rusiyanın vasitəçiliyi ilə uzunmüddətli sülhə bel bağlamaq yayda qartopu oynamaq qədər mənasız işdir.

Ötən əsrin doxsanıncı illərinin ikinci yarısında xarici siyasət məsələləri üzrə dövlət müşaviri postunda çalışmış mərhum Vəfa Quluzadə jurnalistlərlə görüşlərinin birində əlini şimala uzadaraq Qarabağ düyününün açarının saxlandığı dəqiq ünvanı – Kremli göstərmişdi. Bu reallığı Bakı da, İrəvan da qeyri-rəsmi olaraq elə o vaxtdan qəbul edib. Fəqət şimal qonşumuz o dövrdən sanki əsrin və minilliyin dəyişdiyinin və Cənubi Qafqazda yeni reallığın yarandığının fərqinə varmır, bunu qəbul etməkdə çətinlik çəkir. Görünən budur ki, hazırki durumda onun seçimi iki variant üzərindədir: ya bölgəyə barışı öz əli ilə gətirməlidir, ya da sülhün açarını digər vasitəçilərə verməlidir. Azərbaycan üçün hər iki variant məqbuldur.

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Siyasətdə, diplomatiyada səmimiyyət axtarmaq mənasız işdir. Mariya Zaxarovadan isə ayrı cavab gözləmək qeyri-mümkün idi. Şuşada qardaş ölkənin konsulluğunun açılması Azərbaycanla Türkiyənin öz aralarında həll olunası məsələdir. Sadəcə olaraq, diplomatik nümayəndəliyi yalnız bayraq asmaqdan ötrü açmırlar. Bu qurum konkret bir ərazidə Türkiyə vətəndaşlarının müəyyən sənəd-viza məsələləri ilə bağlı fəaliyyət göstərir. Düzdür, hazırda Türkiyəyə gediş-gəliş üçün Azərbaycan vətəndaşlarından viza tələb olunmur. Bu baxımdan, bizim vətəndaşlarımızın da gələcəkdə hansısa məsələ ilə bağlı Türkiyənin baş konsulluğuna müraciətləri ola bilər. Bu müraciətləri həmin diplomatik nümayəndəlik nəzərdən keçirib həll edəcək. Hazırda işğaldan azad olunmuş ərazilərimizdə, o cümlədən, Şuşada az sayda vətəndasımız yaşayır. Qarabağ iqtisadi rayonumuzda bərpa-tikinti işləri ilə məşğul olan Türkiyə şirkətlərinin əməkdaşları da o qədər çox deyil ki, onların problemlərinin həlli üçün dərhal konsulluğa ehtiyac duyulsun. Amma, bu, qaçılmazdır. Nəzərə almalıyıq ki, həmin rayonlara mərhələ-mərhələ məcburi köçkünlərimizin qayıdışı planlaşdırılır. O cümlədən, ilin sonlarında Şuşaya da xeyli alıənin qayıtması gözlənilir. Yəni, konsulluq xidməti bir müddət sonra Şuşada fəaliyyətə başlaya bilər. Sonra konsulluq, ümumiyyətlə, bölgənin rayonlarında yaşayan həm Azərbaycan, həm də orada çalışan Türkiyə vətəndaşlarının məsələləri ilə məşğul olacaq. Bu məsələdə kiminsə Azərbaycana nəinki mane olmağa, heç irad bildirməyə belə haqqı yoxdur.

# Paşinyan yalanın sərhədini itirib

*(əvvəli 1-ci səhifədə)*

N.Paşinyanın bu iddiası ilə bağlı qeyd etmək lazımdır ki, Azərbaycan beynəlxalq hüquqa və daxili qanunvericiliyinə uyğun olaraq, bu il aprelin 23-də Laçın rayonunda Ermənistanla şərti sərhəddə nəzarət buraxılış məntəqəsi yaradıb. İyunun 15-nə, yəni erməni tərəfdən azərbaycanlı sərhədçilərə atəş açılanadək bu məntəqə vasitəsilə hər iki tərəfə sərbəst gediş-gəliş təmin olunub. Bununla bağlı internetdə videolar var. Yəqin ki, onları fəal sosial şəbəkə istifadəçisi olan Nikol Vovayeviç özü də izləyib. Hətta, Qarabağdakı Rusiya sülhməramlıları ilə əməkdaşlıq mərkəzinin nümayəndəsi Gevorq Mirzoyan iyunun 11-də “Azadlıq” radiosuna bildirmişdi ki, Azərbaycanın sərhəd nəzarət buraxılış məntəqəsində bütün sərnişinlər yoxlanılır və indiyədək elə bir insident qeydə alınmayıb. Radionun erməni xidməti isə yazır ki, Qarabağa dönən ermənilər onlarla çox nəzakətlə davranıldığını bildirirlər. Amma iyunun 15-də saat 08:45-də Ermənistan Respublikası ərazisindən açılmış atəş nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu yaralandı. Bununla da məntəqənin iş rejiminin normal ritmi, ahəngi pozuldu. Halbuki, qeyd etdiyimiz kimi, məntəqədən Qarabağın yerli erməni sakinlərinin hər iki istiqamətdə şəffaf, təhlükəsiz və nizamlı keçidi üçün şərait mövcud idi. Məntəqə yaradılan gündən, yəni aprelin 23-dən yüzlərlə sakinin bu yoldan sərbəst şəkildə istifadə etdiyi məlumdur. İyunun 15-də bu məntəqəyə və sərhədçilərimizə qarşı törədilmiş təxribatdan da məqsəd Azərbaycan tərəfdən sərhəd buraxılış məntəqəsinin uğurlu fəaliyyətinə kölgə salmaq, məntəqədən təhlükəsiz və sərbəst şəkildə istifadəyə maneçilik törətməkdir.

Azərbaycan Xarici İşlər Nazirliyinin iyunun 16-da N.Paşinyanın oxşar məzmunlu yalanına cavab olaraq yaydığı məlumatda qeyd edildiyi kimi, DSX-nin hərbi qulluqçusunun yaralanması ilə nəticələnmiş hücumdan sonra bu təxribatın səbəblərinin araşdırılması, sərhəd nəzarət buraxılış məntəqəsinin və oradan keçidin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan tərəfindən həyata keçirilən müvafiq tədbirlərin “blokada” kimi qiymətləndirilməsi qəbuledilməzdir. Yəni, Laçın yolu bağlanmayıb, Qarabağ da blokadada deyil.

Ümumiyyətlə, Azərbaycanın öz suveren ərazisində sərhəd nəzarət buraxılış məntəqəsi təsis etməsi məsələsinə İrəvanın hər hansı müdaxiləsi ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı gedişdir. Bu kimi hərəkətlər beynəlxalq hüququn bütün norma və prinsiplərinə ziddir.

***

N.Paşinyan daha sonra böhtanlarında bir qədər də irəli gedib. Deyib ki, Qarabağda ermənilərin həyatını dözülməz etmək üçün hər şey edilir və bu, məhz etnik təmizləmə siyasətidir. Baş nazir vəziyyətdən çıxmaqla bağlı hökumətin mövqeyini açıqlayıb: “Beynəlxalq Məhkəmənin qərarı mütləq icra olunmalıdır və bu, beynəlxalq gündəm məsələsidir. Nəhayət, Bakı–Xankəndi (Paşinyan Azərbaycanın bu gözəl şəhərinin adını ona yapışdırdıqları hay yarlığı ilə tələffüz edir-S.H.) dialoqunun beynəlxalq mexanizmi işə düşməlidir ki, onun çərçivəsində Qarabağ ermənilərinin hüquqları və təhlükəsizliyi problemi həll olunacaq”.

Hay baş nazirin etnik təmizləməyə dair cəfəngiyyatına gəldikdə isə bildirmək lazımdır ki, Azərbaycan xalqının və dövlətinin bu məsələdə, necə deyərlər, alnı açıq, üzü ağdır. Tarixdə mövcud olmuş heç bir Azərbaycan dövləti, o cümlədən müstəqil Azərbaycan Respublikası etnik təmizləmə, irqi ayrı-seçkilik, hansısa etnik qrupun deportasiyası və soyqırımı kimi cinayətlərdə ittiham oluna bilməz. Bunun üçün heç bir əsas yoxdur. Əksinə, ermənilər azərbaycanlıları bu cinayətlərə məruz qoyublar. Xalqımıza münasibətdə 150 ilə yaxındır ki, haylar tərəfindən bu siyasət yürüdülür. Onların, sadəcə, öz adlarını bizə qoyur, öz əməllərini bizim adımıza çıxmağa çalışırlar. Bu baxımdan N.Paşinyanın Azərbaycan dövlətini və xalqını etnik təmizləmədə ittiham etməyə mənəvi haqqı yoxdur.

***

Ermənistan-Azərbaycan münasibətlərinə gəldikdə isə N.Paşinyan qeyd edib ki, İrəvanın mövqeyi eynidir: “Biz sülhün bərqərar olması üçün hər cür səy göstərməliyik və münasibətlərin normallaşması üçün saziş imzalamalıyıq”. O əlavə edib ki, gələn həftə Vaşinqtonda Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü baş tutacaq. “Nümayəndə heyətimiz bu münasibətlə ABŞ-a yola düşür”, – deyə fikirlərini yekunlaşdırıb.

Qeyd edək ki, iki ölkənin XİN başçıları arasında bu görüş, əslində, iyunun 12-də keçirilməli idi. Lakin görüş sonradan təxirə salındı. Ermənistan tərəfi bugünlərdə iki ölkənin mövqeyində əsas məsələlərlə fikir ayrılıqlarının qaldığını bildirib. İrəvanın yaxın vaxtlarda öz mövqeyini dəyişəcəyi də inandırıcı görünmür. Bu baxımdan Paşinyanın sülhlə bağlı dedikləri də blef kimi qiymətləndirilə bilər.

***Səxavət HƏMİD,***
***“Xalq qəzeti”***

**Ekspert rəyi**



**Yeganə HACIYEVA,**
**politoloq**

Əvvəlcə onu qeyd edim ki, Beynəlxalq Ədalət Məhkəməsi bu yaxınlarda Azərbaycan tərəfinin Ermənistanın azərbaycanlıların insan hüquqlarını məqsədyönlü şəkildə pozmasına cavab olaraq, “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Beynəlxalq Konvensiya çərçivəsində təcili tədbirlər görülməsi məqsədilə etdiyi ikinci müraciətə baxacaq. Ermənistan Azərbaycan Laçın yolunu blokadaya alıb deyərək, dünyanı aldadır, yalanlar yayır. Məhkəmə prosesi zamanı da Ermənistan Laçın yolunun blokadaya alınması ilə bağlı söz-söhbətdən və yalandan başqa heç bir dəlil təqdim edə bilmədi. Beynəlxalq Ədalət Məhkəməsi Laçın yolunda blokada dezinformasiyalarına, bu təbliğatı aparan korrupsioner Avropa Parlamentinin manipulyasiyalarına və erməni lobbisinin qlobal şəkildə aparığı “Xankəndidə aclıqdır” şousuna aldanmadı.

Məhkəmənin Azərbaycanla bağlı çıxardığı qərarda isə onun icbari yerinə yertirilmə mexanizmi nəzərdə tutulmayıb. Yol açıqdır, sadəcə, olaraq, onun təhlükəsizliyi və şəffaflığı təmin edilməlidir. Paşinyan yaxşı olar ki, Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanla bağlı çıxardığı qərarlar haqqında danışsın. Azərbaycan tərəfinin məhkəmə qərarını icra etməsindən danışırsa, ilk növbədə özü çıxarılan qərarın şərtlərinə əməl etməlidir. Beynəlxalq Ədalət Məhkəməsinin hüquqi qərarları heç bir hala müzakirə olunmur və mübahisələndirilmir. Dövlətlərin bunu qəbul etməsi ümumi qəbul olunmuş prinsipdir. Amma qərar hüquqi deyil, siyasi şərtlər əsasında çıxarılarsa, ona əməl olunmaya bilər.

# Dünya erməniliyi Bakı–İrəvan danışıqlarının Qərb xəttinə qarşıdır

## ABŞ-da və Avropada anti-Azərbaycan çağırışları eşidilir

*(əvvəli 1-ci səhifədə)*

Beləliklə, ondan başlayaq ki, ABŞ Konqresinin İnsan haqları komissiyasında "Dağlıq Qarabağ xalqının müdafiəsi" mövzusunda dinləmələr keçirilib. Göründüyü kimi, Birləşmiş Ştatların ali qurumunda "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidinin olmadığını "unudurlar". Digər tərəfdən, Konqresdə, deyəsən, Vaşinqtonun Azərbaycanla Ermənistan arasındakı nizamlamanın kollektiv Qərb xəttində təmsilçiliyindən və hazırkı mövqeyindən də xəbərsizdirlər. Halbuki, Dövlət Departamentinin bu barədə qurumu yaxşı məlumatlandırması vacibdir. Çünki yekunda belə müzakirələr, necə deyərlər, qurşaqdan aşağı zərbə təsiri bağışlamaqdadır.

Beləliklə, məlum dinləmələrdə çıxış edən bədnam Kris Smit adlı konqresmen bildirir ki, "ABŞ Dağlıq Qarabağda soyqırımı və ya etnik təmizləmə təhlükəsini qəbul edə bilməz". Onun vay-şüvən qoparıb dediyinə görə, bölgənin kiçik, ancaq həssas əhalisi Türkiyənin dəstəklədiyi daha böyük və güclü Azərbaycan qüvvələrinin əhatəsindədir. Əlbəttə, Smitə Qarabağ ermənilərinin, əslində, ölkəmizin vətəndaşı olduqlarını, bölgədəki separatçı rejimin isə onların taleyi ilə oyun oynadığını bildirməyə ehtiyac yoxdur. Çünki özü hər şeyi gözəl anlayır.

Ancaq konqresmen ermənipərəstliyindən də qalmır və bildirir ki, Azərbaycan 2020-ci ildən başlayaraq, Qarabağ ətrafında fəaliyyətini gücləndirməkdədir. Guya, ölkəmizin qoşunları nəinki bölgənin çox hissəsini, hətta Ermənistanın torpaqlarını da işğal ediblər: "Azərbaycan hökuməti razılaşmaları pozub. Dağlıq Qarabağda insanların ərzaq və digər malları əldə etməsi çətinləşib. Hökumətimiz Azərbaycan və Ermənistan liderləri ilə müzakirələr apararkən, biz Konqresdə bütün bunların hansı istiqamətdə getdiyini soruşmağa borcluyuq. Ölkəmiz Dağlıq Qarabağda soyqırımı və ya etnik təmizləmə təhlükəsini qəbul edə bilməz".

Dinləmələri aparan digər ermənipərəst konqresmen Cim Makqovern isə müzakirələrin Qarabağ ermənilərinin, guya, təhlükə qarşısında qalmalarına görə getdiyini vurğulayıb. Onun fikrincə, ABŞ Prezidenti Co Baydenin Osmanlı İmperiyasındakı "erməni soyqırımı"nı tanıdığı nəzərə alınsa, növbəti soyqırımı təhlükəsi barədə düşünmək lazımdır. "Azərbaycan Türkiyə deyil, Osmanlı İmperiyasının varisi olan Türkiyənin yaxın müttəfiqidir. İnsanlar SSRİ-nin dağılmasından sonra ən uzunmüddətli konflikt olan Dağlıq Qarabağ münaqişəsinin tarixin təkrarına səbəb ola biləcəyindən ehtiyat edirlər", – deyə Makqovern fikirlərini yekunlaşdırıb.

Göründüyü kimi, ABŞ ermənipərəstləri özlərinin "siyasi" xətlərinə anti-Türkiyə təmayülünü də daxil edirlər. Onlar Birləşmiş Ştatların siyasi dairələri üçün bu təmayülün xarakterik olduğunu gözəl anladıqlarından buna gedirlər. Heç şübhəsiz, məqsədləri Qarabağ avantürasına böyük



miqyas qazandırmaq, Türkiyəyə fokuslanaraq, anti-Azərbaycan ovqatını da körükləməkdir.

Söhbət ABŞ ermənipərəstlərindən düşmüşkən, qeyd edək ki, ötən həftə onların aktivliyi baxımından digər bir hadisə də qeydə alınmışdı. Amerika Sahibkarlıq İnstitutu adlanan qurumun baş analitiki Maykl Rubin Azərbaycan–Ermənistan sərhədində yaşanmış gərginliyə həsr olunmuş "Azərbaycanın Amerika şirkətinə hücumu sanksiyaların ləğvinə son qoymalıdır" sərlövhəli məqalə yazmışdı. Məqalədə vurğu Azərbaycan hərbi qüvvələrinin, guya, ABŞ sərmayəsi ilə tikilən metallurgiya zavodunu atəşə tutması iddiasına qoyulmuş və belə nəticəyə gəlinmişdi ki, Birləşmiş Ştatlar vaxtilə Azərbaycana tətbiq etdiyi sanksiyanı yenidən bərpa etməlidir. Mövcud xüsusda "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş gündəmə gətirilmiş və Birləşmiş Ştatlar Administrasiyasına həmin düzəlişi işə salaraq, Bakıya hər cür yardımı dayandırmaq çağırışı ünvanlanmışdı.

Sözügedən məqalə başdan-ayağa siyasi motivli idi. Aydındır ki, yazı ermənipərəst dairələrin, erməni lobbi və diaspor təşkilatlarının sifarişi ilə qələmə alınmışdı. Materialın siyasi motivinə iki aspektdən yanaşmaq olardı. Birincisi, orada bildirilirdi ki, ABŞ Dövlət Departamentinin Azərbaycan və Ermənistan arasında sülh vasitəçiliyinə rəğmən, Bakı silahlı qarşıdurmaya meyillidir və İrəvana hədə-qorxu gəlir ki, burada da başlıca məqsəd, guya, Ermənistanın işğalıdır. İkincisi isə vurğulanır ki, Azərbaycan özünün təcavüz məramını gerçəkləşdirmək naminə, guya, Qarabağ amilindən bəhanə kimi istifadə edir.

Göründüyü kimi, eyni dalğa, eyni koordinat. Əminliklə deyə bilərik ki, ABŞ Konqresində keçirilmiş dinləmələrlə Rubinin məqaləsi bir mərkəzdən idarə olunmaqdadır. Burada məqsəd, eyni zamanda, Vaşinqtonun Azərbaycanla Ermənistan arasındakı sülh gündəliyinə xələl gətirməkdən ibarədir. Deməli, nəticədə, ümumən kollektiv Qərb tənzimləməsinə zərbə vurmaq niyyəti güdülür. O tənzimləməyə ki, hazırkı mahiyyəti etibarilə İrəvana qətiyyən sərf etmir.

***

Söhbət Azərbaycan–Ermənistan münasibətlərinin nizamlamasının kollektiv Qərb formatını heçə endirmək cəhdlərindən gedirsə, yazımızın ikinci bölümündə ermənipərəstliyin Avropa təmayülündən söz açaq. Bu mənada Avropa Parlamentinin Təhlükəsizlik və müdafiə üzrə alt komitəsinin sədri Natali Luazonun Ermənistana səfəri ilə bağlı keçirdiyi mətbuat konfransında səsləndirdiyi fikirlərə nəzər salmağı zəruri sayırıq. Xanım Luazo Laçın yolunun "bağlanmasının", guya, qanunsuz olduğunu və buna son qoyulmasının vacibliyini bildirib. O, Avropa Parlamentinin Laçın yolunun "bağlanması" məsələsindəki yaramaz saydığımız mövqeyinə dəstəyini bildirərkən, belə deyib. Eyni zamanda, bildirib ki, Ermənistan demokratik ölkədir və sən demə, ölkənin mövqeyinin müdafiəsi həm də demokratiyanın qorunması imiş. Yəqin, xanım Luazonu "dərin məzmunlu" siyasi spekulyasiyaya baş vurduğunu hiss etdiniz...

Laçın yolunun yaxınlığına baş çəkməsindən, Avropa İttifaqının Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan tərəfindəki mülki müşahidə missiyasının üzvləri, həmçinin həmin zonadakı əhali ilə görüşlərindən bəhs edən Luazonun söylədiklərindən belə qənaətə gəlmək mümkündür ki, İrəvan sülh istəyir, Bakı isə yox. Bu arada onu da diqqətə çatdıraq ki, Avropa Parlamentinin komitə sədri Natali Luazo milliyyətcə fransızdır.

***Ə.RÜSTƏMOV,***
***"Xalq qəzeti"***

# Qatilə azadlıq, dumanda yolunu azana 20 il cəza

**Ermənistan məhkəməsi 2003-cü il təvəllüdlü əsir hərbçimiz Axundov Hüseyn Əhliman oğlunu 20 il həbs cəzasına məhkum edib. Rəsmi İrəvan əsir hərbçimiz üzərində qurduğu qondarma məhkəmə zamanı Hüseyn Axundovu Zəngəzur mis-molibden kombinatının gözətçisini qətlə yetirməkdə təqsirləndirib.**



Xatırladaq ki, bir müddət öncə Hüseyn Axundov 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu ilə birlikdə dumanlı hava şəraitində Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində yolu azmış və məhdud görmə səbəbindən qarşı tərəfə keçmişdi. Həmin vaxt həbs edilən hərbçilərimiz "Ermənistanın dövlət sərhədini qanunsuz keçməkdə, odlu silah və döyüş sursatı daşımaqda" ittiham olunsa da, bir müddət sonra Hüseyn Axundova qarşı yeni – tamamilə absurd bir ittiham irəli sürüldü. O, erməni gözətçisini qətlə yetirməkdə ittiham edildi ki, məqsəd hərbçimizin uzunmüddətli həbsi üçün hüquqi zəmin yaratmaq, habelə Azərbaycan əsgərinin beynəlxalq arenada qatil obrazını formalaşdırmaq idi.

### Ermənistan beynəlxalq konvensiyaları saymır

Ermənistan məhkəməsinin əsir hərbçimiz Hüseyn Axundovu heç bir əsas olmadan 20 illik həbsə məhkum etməsi, rəsmi İrəvanın əsgərimizə qarşı sərgilədiyi növbəti vəhşilik nümunəsi oldu. Qeyd edək ki, hər iki hərbçimiz əsir alınan zaman amansız işgəncələrə, ağır fiziki zorakılığa məruz qalmışdır. Əsgər Hüseyn Axundovun qanunsuz saxlanılmasına hüquqi bəraət qazandırmağa çalışan ermənilər onu heç bir əsas olmadan qətldə ittiham edir ki, bu da beynəlxalq konvensiyaların pozulması deməkdir. "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının 3-cü maddəsində aydın şəkildə göstərilir ki, kimsəni işgəncəyə, qeyri-insani rəftara məruz qoymaq olmaz. Hansı ki, Ermənistanın hər iki əsir hərbçimizə münasibətdə beynəlxalq hüququn bu tələbini kobud şəkildə pozdugunu əks etdirən foto-video faktlar mövcuddur.

Konvensiyanın 6-cı maddəsində bildirilir ki, ədalətli məhkəmə araşdırması hüququna malikdir və kimisə bu hüquqdan məhrum etmək yolverilməzdir. Halbuki, əsgər Hüseyn Axundovun üzərində qurulan qurama məhkəmə prosesi ilə "ədalətli məhkəmə" ifadəsi arasında hansısa uyğunluq tapmaq mümkün deyil.

Konvensiyanın 14-cü maddəsində vurğulanır ki, "Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır". Halbuki, Ermənistanın "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının da bu maddəsini kobud şəkildə pozması, sırf etnik-milli amillər səbəbi ilə azərbaycanlı əsirlərin hüquqlarına qəsd etməsi göz önündədir.

Əsir əsgərimiz üzərində oyuncaq məhkəmə prosesinin qurulması və heç bir fakta söykənmədən onun 20 il müddətinə azadlıqdan məhrum edilməsi Cenevrə Konvensiyası ilə də ziddiyyət təşkil edir.

### Dünya ictimaiyyətini aldatmaq cəhdi...

Ermənistanın əsir Hüseyn Axundovu uzun müddətə azadlıqdan məhrum etməsi, insan hüquqlarının pozulması ilə yanaşı, həm də beynəlxalq ictimaiyyəti aldatmaq cəhdidir. Rəsmi İrəvan qondarma məhkəmə prosesi ilə göstərməyə çalışır ki, guya, əsir hərbçimiz Ermənistan ərazisinə məqsədli şəkildə– diversiya törətmək niyyəti ilə daxil olub və bu əsnada da erməni gözətçisini qətlə yetirib.

Dumanlı havada yolu azan hərbçimizi qatil kimi qələmə vermək Azərbaycan əsgərinin vəhşi, mülki şəxslərə belə aman verməyən qorxunc obrazını formalaşdırmağa hesablanıb. Məqsəd həm də Ermənistanın həyata keçirdiyi sərhəd təxribatlarına görə bütün məsuliyyəti Azərbaycanın üzərinə qoymaqdan, təmas xəttindəki gərginliklərin ölkəmizdən qaynaqlandığı fikrini beynəlxalq ictimaiyyətə sırımaqdır.

Unutmaq olmaz ki, Ermənistan beynəlxalq ictimaiyyətin aldadılması, yalanın həqiqət kimi təqdim olunmasında zəngin təcrübəyə malikdir və bu təcrübədən günümüzdə də gen-bol istifadə etməkdədir.

***Seymur ƏLİYEV***



**Ermənistanın baş naziri Nikol Paşinyanın 44 günlük müharibə şəraitinin öyrənilməsi üzrə parlament istintaq komissiyasının iclasında bildirdikləri ona qarşı kəskin reaksiyalar doğurub. Paşinyanın ən böyük tənqid hədəfi olan eks-prezidentlər – Robert Koçaryandan və Serj Sarkisyandan hələ bir münasibət olmasa da, Nikolun söylədikləri Ermənistanın sabiq xarici işlər naziri Vardan Oskanyanı, həmçinin Rusiyanı bərk narahat edib.**

# Paşinyan üçün "siyasi gilyotin"

## *Baş nazirin əleyhdarları total hücuma keçiblər*

Birincinin mövqeyini hələlik kənara qoyub, ikincinin nələrə toxunduğuna nəzər salaq. Ancaq əvvəlcə arayış verək ki, baş nazir sabiq XİN rəhbərinin adını onun Azərbaycandan qəsb edilmiş torpaqları vaxtilə "işğal olunmuş ərazilər" adlandırması kontekstində dilə gətirib. Rusiyanın isə 2020-ci il oktyabrın 19-da atəşkəsə nail ola bilmədiyini vurğulayıb və bunu, bir növ, Moskvanın Bakı qarşısındakı acizliyi kimi dəyərləndirib.

Ermənistanın keçmiş xarici işlər naziri V.Oskanyan bildirib ki, Nikol Paşinyan 44 günlük müharibə qurbanlarına və itkilərinə görə günahını hiss edəndə, məsuliyyətdən yayınmaq, vicdanını sakitləşdirmək instinktini işə saldı: "Zaman keçdikcə və erməni xalqı itkilərin miqyasını, dərinliyini və nəticələrini düşünməyə başladıqca, Paşinyanın özünə haqq qazandırmaq cəhdləri bir o qədər təkmilləşdi və yeni çalarlar əlavə olundu".

...N.Paşinyan, heç şübhəsiz, özünü də müharibəyə görə günahlandırmalıdır. Hər halda, sarkisyanların, koçaryanların və oskanyanların illərlə oynadıqları "oyunu" da puç etdi. Nəzərə alaq ki, ikincilər çeşidli manipulyasiyaları ilə Azərbaycanla danışıqlar prosesini dalana dirəyir, ölkəmizin haqlı istəyinə maneə törədirdilər. Ümid edirdilər ki, Azərbaycanda yeni nəsil formalaşacaq və həmin nəsil Qarabağı, sadəcə, yaddan çıxaracaq. Bununla bağlı erməni beyin mərkəzləri bəlli strategiya da işləyib hazırlamışdılar.

Lakin 2016-cı ilin "Aprel müharibəsi" sübut etdi ki, həmin vaxtın siyasi və sosioloji yüklü erməni tərtibatının heç bir nəticəsi yoxdur. Əslində, o vaxtdan etibarən, Ermənistanın hakim dairələrində həmin ssenarinin iflasa uğradığına dair ilkin təsəvvürlər formalaşmağa başladı. Bu təsəvvürlər tədricən erməni xalqının Qarabağ mövzusunda tükənməsi reallığını da doğurdu. Nəticə etibarilə, xalq anti-Qarabağ təmayülünü gücləndirdi və münaqişənin əleyhdarı kimi görünən Paşinyanı hakimiyyətə gətirdi. Daha dəqiq desək, Nikol iqtidara əhalinin məhz daxildəki Qarabağ klanına antipatiyası zəminində yiyələndi.

Ancaq Paşinyan baş nazir kürsüsündə əyləşər-əyləşməz, onu hakimiyyətə gətirən tendensiyasını dəyişmək qərarına gəldi. "Qarabağ Azərbaycandır– nöqtə" bəyanatı, Şuşada yallı rəqsi və şərabdan sərxoşluq isə əslində, həmin meyili dəyişməyə hesablanmış jestlərin tərkib hissəsi kimi diqqət çəkdi. Ardınca baş nazirin komandası tipik erməni xislətinə xas "yeni ərazilər uğrunda yeni müharibə!" şüarını uydurdu ki, bununla Nikolu hakimiyyətə gətirən böyük kəsimin anti-Qarabağ təmayülü deformasiyaya uğradı və bu kəsim üçün də ənənəvi qəsbkarlıq xislətindən irəli gələn motivlər önə keçdi.

Bəli, bütün bunlar, necə deyərlər, Nikol Paşinyanın yastığının altından çıxdı. Deməli, baş nazir müharibənin başlanmasına görə, şübhəsiz, günahkardır. Ancaq, haqqında söz açdığımız 2016-cı ilin "Aprel müharibəsi"ni və həmin hərbi toqquşma ilə çoxillik erməni planlarının iflası reallığını nəzərə alsaq, düşünmək mümkündür ki, Azərbaycan hər bir halda öz torpaqlarını qaytarmaq üçün qətiyyətli və sərt addımlara əl atacaqdı. Çox güman, Paşinyan bunu bilirdi.

Deməli, Nikolun başlıca səhvi onu hakimiyyətə gətirən ideoloji tezislərə sadiqlik göstərməməsi, özünün erməni xislətinə yenik düşməsi oldu. Əslində, o dövrün proseslərini incələyəndə onu da söyləmək olar ki, Paşinyan yox, hər hansı digər qüvvə iqtidara gəlsəydi belə, sarkisyanların, koçaryanların və elə oskanyanların da uzun müddət dalana dirədikləri, səmərəsiz məcraya saldıqları danışıqlar prosesini eyni "axar" ilə davam etdirməyi bacarmayacaqdı. Çünki Azərbaycanın səbri tükənmişdi. Nikol bunu da hiss etdi və adekvat tədbir kimi destruktivliyi seçdi. Hər halda, o, 2018-2020-ci illərdə keçmişdəki nizamlama gündəliyi ilə bağlı hazırda səsləndirdikləri məqamların təhlilini aparmamış olmazdı. Aparmışdı, lakin sağlam düşüncəyə yox, instinktiv davranışa üstünlük vermişdi.

Yeri gəlmişkən, V.Oskanyan da Nikolun instinktiv davrandığını bildirir və bunun yanlışlığı üzərində dayanır. "Dövlət və beynəlxalq münasibətlərdə insan instinkt və hisslərinin yeri yoxdur. Konstitusiya, qanunlar, beynəlxalq münasibətlərdə yazılı və yazılmamış normalar var. 2018-ci ilin aprelindən sonra Ermənistanda və onun ətrafında baş verənlər, nə olursa -olsun, ölkənin birinci şəxsinin, baş komandanın və xarici siyasətə cavabdeh olan yeganə şəxsin uğursuzluğunun nəticəsidir", – deyən erməni sabiq XİN rəhbərinin dedikləri aydın havada ildırım effekti yaratmasa da, məsələyə soyuq yanaşma baxımından tutarlı sayıla bilər.

Oskanyanın söylədikləri həm də ona görə tutarlıdır ki, prinsipcə Paşinyanın 44 günlük müharibəyə görə bəhanəsi olmamalıdır. Nikol hazırda ölkəsindəki xəstə axına qarşı üzdüyü kimi, müharibədən əvvəl də bunu bacarmalı idi. Bu, ən azı böyük insan itkisindən qaçmaq imkanı verərdi. Hərçənd, hazırda müharibədəki acınacaqlı və rüsvayçı məğlubiyyətə rəğmən, yenə iddialarından qalmayan qövmü görürük. Onu da düşünürük ki, həmin qövm Nikolun öz siyasi platformasının vacib tezisinə riayət etməsinə heç o zaman da imkan tanımayacaqdı. Ola bilər, baş nazir inqilabi eyforiyasının həmin gerizəkalılar qarşısında yenik düşə biləcəyindən qorxub. Amma, necə deyərlər, qorxunun əcələ faydası yoxdur...

Burada bir vacib məqamı da vurğulamağa ehtiyac var. Bir qədər öncə N.Paşinyanın hakimiyyətə həm də anti-Qarabağ tezislərinə görə gəldiyini vurğuladıq. Həmin tezislərə üstünlük vermək sıravi erməni xalqının seçimi idi. Ancaq nəzərə alaq ki, Paşinyanın hakimiyyət kluarlarına siyasi köçünə təkan vermiş küçələrlə, həmin kluarlar arasında uçurum var idi. Uçurum indi də qalmaqdadır. Yəni, faktiki olaraq, Paşinyanı hakimiyyətə gətirən xalqın mənafeləri ilə ölkənin siyasi elitasının baxışları üst-üstə düşmür. Ermənistandakı böhranın mənəvi-psixoloji və siyasi səbəbi məhz budur. Deməli, nəticəyə gəlmək mümkündür ki, Nikolun axına qarşı üzməsi elə də asan məsələ deyil. Ancaq bu amil ona təqsirsizlik prezumpsiyası qazandırmır. Çünki ilahi ədalət var.

Paşinyanın o ədalətə doğru tipik erməni xəstəliyini hələ də öz üzərindən atmadan irəliləməsinin səbəbi yalnız Azərbaycanın gücüdür. Bildirdiyimiz kimi, bu güc özünü hər bir halda göstərəcəkdi. Oskanyan və onun kimilərin səhvi isə bunu başa düşməmələrindədir. Çünki beləlləri üçün, nə olursa-olsun, Nikolun getməsi lazımdır. Bu səbəbdən var gücləri ilə baş nazirə qarşı çıxırlar.

Keçmiş XİN rəhbəri bildirir ki, əgər Paşinyan sülh müqaviləsinin imzalanmasına nail olsaydı, Türkiyə və Azərbaycanla sərhədi açsaydı, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini müharibəsiz və itkisiz şəkildə, Ermənistanla birləşdirən dəhlizlə birgə saxlasaydı, kimlərisə ittiham etmək hüququ yaranardı. Həqiqətən gülməlidir. Adam bu təfəkkürlə necə nazir olub, maraqlıdır...

Oskanyan unudur ki, Paşinyan bunu bacarsaydı, ölkədə hazırkı böhran olmazdı, üstəlik, baş nazir kimsəni ittiham da etməzdi. Digər tərəfdən, axı Oskanyanın da təmsil olunduğu Ermənistan iqtidarı Qarabağı ayrıca tutmadı, onu digər işğal olunmuş rayonlarımızla bərabər müstəvidə saxladı. Bu mənada Nikol tam düz deyir ki, ekslər adı çəkilən ətrafdakı yeddi rayonu özlərində saxlamağa inad etməklə, əslində, Qarabağı həmin ərazilərlə eyniləşdirmiş oldular.

Deməli, Oskanyan mənasız ritorikaya baş vurur. Onun Paşinyanın, guya, üç keçmiş prezidentdən yaxşı miras almasını söyləməsi də səfehlikdir. Çünki Nikolun miras aldığı böyük yük idi ki, onun ağırlığını müharibə ilə aradan qaldırmaq istədi, alınmadı. Paşinyanın sözügedən istintaq komissiyasının iclasında söylədikləri isə həm də, həmin ağırlığı öz üzərindən atmaq istiqamətindəki növbəti cəhdidir.

*

Gələk, sonda bildirəcəyimizi vurğuladığımız məqama. Yəni, Paşinyanın fikrinə Rusiyanın münasibətinə. Nikol iyunun 20-də 44 günlük müharibə ilə bağlı parlament istintaq komissiyasının iclasında bildirmişdi ki, Azərbaycanın yeni tələblərinə görə, Moskva, faktiki olaraq, 19 oktyabr tarixi də (2020-ci il) daxil olmaqla, atəşkəs əldə edə bilməyib. Halbuki, Rusiya Prezidenti Vladimir Putin məhz Ermənistanı atəşkəsdən yayınan tərəf kimi göstərmişdi.

M.Zaxarova isə əvvəlcə bildirib ki, Ermənistan parlament komissiyasının iclası ölkənin özündəki daxili siyasi proseslərin davamlılığı ilə bağlıdır. "Mən əmin deyiləm ki, biz bu daxili müzakirəyə şərh verməliyik. Ancaq, eyni zamanda, bildirməliyəm ki, ən yüksək səviyyədə konfidensial danışıqların detalları mənim səlahiyyətlərimdən uzaqdır",– deyən M.Zaxarova onu da əlavə edib ki, Ermənistandakı daxili siyasi müzakirələr nə qədər qızğın olsa da, həqiqət var və o, faktlara əsaslanır: "Məhz Rusiya 2020-ci ilin payızında Qarabağda atəşkəsə nail ola, regionda sülhü bərpa edə bildi və bu, kağız üzərində yazılıb. Bu, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin bəyanatında qeyd olunub. Yaxşı, necə düşünmək olar ki, bu bəyanatlar hər üç ölkənin öz inkişaf nəticələrinə əsasən qəbul edilib? Yoxsa, kimsə o zaman razılaşdırılanlardan imzasını geri götürmək istəyir? Mən düşünmürəm".

Göründüyü kimi, Zaxarovanın Paşinyanın bildirdiklərinə münasibəti, kifayət qədər diplomatik məzmun daşıyır. Eyni zamanda, rusiyalı xanım diplomat eyhamla sözünü də deyir və bildirir ki, əsas olan Paşinyanın atdığı imzadır. Yəni, baş nazirin Rusiyanı ittiham etməsi düzgün deyil. Çünki, məhz, Moskva İrəvan üçün daha acınacaqlı perspektiv vəd edən müharibəni dayandırıb. Başqa sözlə desək, Paşinyan getsin şükür eləsin. Şükür eləsin və ağıllı olsun, müharibədən sonra nə etdiyini və nə etməli olduğunu düşünsün. Keçmişi isə Zaxarovanın fikrincə, tarixçilərin öhdəsinə buraxmaq lazımdır. Onun sözlərinə görə, müxtəlif ölkələrin daxili gündəmində olan bir çox məsələlər səslənib. Rusiya isə suveren ölkənin rəhbərliyinin dövlət adından rəsmi şəkildə ifadə etdiyi mövqeyə söykənir və bunu rəhbər tutur.

Rusiya XİN sözçüsü onu da bildirib ki, diqqəti 2020-ci ilin hadisələrinə görə məsuliyyət daşıyanların axtarışına yox, 2020–2022-ci illərdə ən yüksək səviyyədə hazırlanmış üçtərəfli sazişlər toplusunun həyata keçirilməsinə yönəltmək lazımdır. Zaxarova həmin sazişlərin, yəni üçtərəfli bəyanatların Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesi üçün fundamental, alternativsiz yol xəritəsi olduğunu vurğulayıb ki, bunun Rusiyanın hazırkı baxışını təşkil edən prinsip məqam olduğu aşkardır.

Belə nəticəyə gəlmək mümkündür ki, Moskva Paşinyanın 44 günlük müharibə müstəvisindəki anti-Rusiya tezislərini Ermənistanın üçtərəfli bəyanatlar məntiqindən uzaqlaşmaq niyyəti kimi görməkdədir. Zaxarova isə fikirləri ilə buna qarşı immunitet formalaşdırmağı hədəf seçir. Onun diqqətə çatdırdığımız iqtibasdakı "Yoxsa, kimsə o zaman razılaşdırılanlardan imzasını geri götürmək istəyir?" fikrini isə Kremlin Paşinyana xəbərdarlığı kimi də qiymətləndirmək mümkündür.

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

# "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası"





**Azərbaycan Dillər Universitetində təhsil həyatımız üçün tarixi bir gün yaşanıb. Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda keçirilən beynəlxalq elmi konfransda müxtəlif dövlətlərin ali təhsil müəssisələrindən tanınmış alimlər, rektorlar, ictimai-siyasi xadimlər, ziyalılar iştirak ediblər.**

Konfrans elmi əməkdaşlıq, beynəlxalq münasibətlər, tolerantlıq və multikultural ab-hava baxımından xüsusilə əhəmiyyətli olub. Bu önəmin bir səbəbi də Azərbaycanın dünyaya bir daha tolerant və multikultural bir dövlət kimi tanınması idi. Bu münasibətlə xarici ölkələrdən gələn elm adamlarının, nüfuzlu ziyalıların "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" adlı beynəlxalq elmi konfransın təşkili ilə bağlı və həmçinin orada səsləndirdikləri fikirlərini təqdim edirik:

**Çeçenistan Dövlət Pedaqoji Universitetinin rektoru İsmayıl Baykanov:**



– Azərbaycan Dillər Universiteti tarixi ənənələri və elmi nailiyyətləri olan ali təhsil müəssisəsidir. Azərbaycan Dillər Universitetini 75 illik yubiley münasibətilə təbrik edir, universitet rəhbərliyinə və kollektivinə ən səmimi arzularımı çatdırıram. Konfransa dəvətə görə universitet rəhbərliyinə, hörmətli rektor Kamal Abdullaya öz minnətdarlığımı bildirmək istəyirəm. Bu konfrans mötəbər bir elmi tədbirdir. Ulu öndər Heydər Əliyevin adına layiq bir konfransdır. Bildirmək istəyirəm ki, Heydər Əliyev nəinki Azərbaycan xalqının böyük oğlu idi, o, həm də dünyanın ən güclü siyasi liderlərindən biri idi. Heydər Əliyev çeçen xalqının qəlbində dərin sevgi və hörmət qazanıb.

Çeçen xalqı Azərbaycan Prezidenti cənab İlham Əliyevə də dərin hörmət bəsləyir. Ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələri var. Bu münasibətlər ölkə rəhbərləri səviyyəsində yüksələn xətlə inkişaf etməkdədir.

Biz Azərbaycan Dillər Universiteti ilə elmi əməkdaşlığın başlanğıcındayıq. İnanıram ki, əlaqələrimiz daha da inkişaf edəcək və gələcəkdə yeni elmi perspektivlərin yaranmasına şərait yaranacaq.

**Türk Dünyası Araşdırmaları İnstitutunun yaradıcısı, professor Fikrət Türkmən:**



–Çox vacib və gözəl konfrans oldu. Universitetin rektorunu və bütün kollektivi ürəkdən təbrik edirəm. Bu il, eyni zamanda, Azərbaycan Dillər Universitetinin 75 illik yubileyidir. Çox əlamətdar bir hadisədir. Bilirsiniz ki, Azərbaycanda Türkiyə–Azərbaycan Universiteti qurulacaq. Bu, çox vacib addımdır. Dəvət edərlərsə, yaşıma baxmayaraq, gələrəm. Elə bir iş olmalıdır ki, bura cazibə mərkəzi halına gəlsin. Bu universitetdə türk dünyasına könül vermiş, fədakar adamların çalışmasını istərdim. Türkiyə–Azərbaycan universitetinin qurulmasının son dərəcə önəmli əhəmiyyəti var. Türk dünyasının bütün istiqamətlərdə gələcək birliyi bu kimi universitetlərə bağlıdır.

**Pakistanın Milli Müasir Dillər Universitetindən professor Muhammad Zubair İqbal:**

–Bu konfrans ulu öndər Heydər Əliyevin multikulturalizm və sülhpərvər ideyalarının əksidir. Biz də sizin kimiyik. Hər zaman sülhün tərəfdarıyıq. Azərbaycan Dillər Universitetinin 75 illik yubileyi münasibəti ilə sizi səmimi qəlbdən təbrik edirəm. Gözəl təsadüfdür ki, Heydər Əliyevin 100 illik yubileyi ilə eyni ildədir. Biz də öz universitetimizdə Heydər Əliyevin 100 illiyi ilə əlaqədar tədbir keçirəcəyik və sizin əməkdaşlarınızdan da orda görmək istəyərik. Tədbirin təşkili əla idi. Belə maraqlı və önəmli konfransın təşkil edənlərə dərin minnətdarlığımı bildirirəm.

**İtaliyanın "Sandro Teti Editore" nəşriyyat evinin rəhbəri Sandro Teti:**



–Azərbaycan multikulturalizmində sadəcə nəzəri cəhətdən deyil, həmçinin fərqli millətdən, dindən olan insanlar mövcuddur. Mən düşünürəm ki, Heydər Əliyevsiz Azərbaycanı düşünmək olmaz, əgər, o, olmasaydı, ölkəniz hazırki vəziyyətdə olmazdı. Ölkənizin müstəqilliyi, ərazi bütövlüyü məhz Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin adı ilə bağlıdır. Universitetin 75 illiyi münasibətilə sizi təbrik edirəm. Çox qürur duyuram. İlk dəfə sizin universitetdə nitqimi rus, türk, ingilis dillərindən fərqli olaraq, öz doğma dilimdə – italyan dilində ifadə etdim. Sevinirəm ki, Azərbaycan Dillər Universiteti belə bacarıqlı, savadlı gənclər yetişdirir. Hər şey üçün təşəkkür edirəm.

**Maynz Universitetinin professoru Hendrik Buşoten:**

–Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı parlaq Qələbə çox əlamətdardır. Bu isə öz növbəsində, multikultural siyasətin əsasını qoyan Heydər Əliyevin uğurlu siyasətinin təzahürüdür. Həm Heydər Əliyevin 100 illik yubileyi, həm də universitetin 75-ci ildönümü üçün sizə ən xoş arzularımı bildirirəm. Üç-dörd dəfə Bakıya gəlmişəm. 75 il uzun bir müddətdir, buna görə sizi təbrik edirəm. Azərbaycan üçün çox faydalı universitetdir. İnkişaf edirsiniz. Uğurlarınızın davamını diləyirəm.



**Pakistanın Kompüter və İnkişaf Etməkdə Olan Milli Elmlər Universitetinin professoru Summaira Sarfraz:**

– Əvvəla, mən burada olmaqdan çox xoşbəxtəm. Bu bayramın bir hissəsi olmaqdan çox həyəcanlıyam. Bu, ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş maraqlı tədbirlərdən biridir. Pakistan və Azərbaycan Dillər Universiteti arasında tələbə mübadilə proqramları var. Onların sayəsində tələbələr müəyyən müddətdə burda təhsil almaq şansı əldə edirlər. Bu baxımdan, sizin tələbələrlə bizim tələbələr arasında maraqlı informasiya müzakirələri olur. Ümumiyyətlə, belə tədbirlər dostluq münasibətlərini inkişaf etdirir. Azərbaycan Dillər Universitetini çox sevdim. Həmçinin tələbələrinizi də. Tələbələrin çıxışlarından da aydın olur ki, burada yüksək səviyyədə tədris aparılır. Sonda demək istəyirəm ki, Azərbaycan Dillər Universitetinin 75 illiyi münasibəti ilə akademik, rektor Kamal Abdullanı və burada zəhməti keçən hər kəsi təbrik edirəm. Və mən sizi çox sevirəm.

**Belqrad Universiteti Türkologiya kafedrasının müdiri, professor Ema Miljkoviç:**

– Mən, həqiqətən, sizin universitetinizi çox bəyəndim. Burada əla həmkarlar, dostlar və fantastik müəllimlərlə tanış oldum. Burada təhsil alan tələbələr o qədər enerjilidir ki, həmin müsbət enerjini mənə də ötürdülər. Mən bunu çox bəyəndim. Bu il Azərbaycan Dillər Universitetinin 75 yaşı olur. Bu münasibətlə də sizi səmimi qəlbdən təbrik edirəm. Uğurlarınız bol olsun.

**Qafqaz Universitetləri Birliyinin sədri Ramazan Korkmaz:**

– Qafqaz Universitetləri Birliyinin sədri olaraq, Azərbaycan Dillər Universitetini 75-ci ildönümü münasibətilə təbrik edirəm. Rektorunuz Kamal Abdulla təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının ziyalı insanlarından biridir. Onun rəhbərliyi altında Azərbaycan Dillər Universiteti daha gözəl layihələr həyata keçirəcək. Necə ki, bu gün multikulturalizm tədbirində dünyanın problemlərinə həll yolları axtaran universitet forumuna gəlmişəm. Dünyanın problemlərinə beynəlxalq anlamda həll yolları axtaran universitet olmaq çox qürurverici bir haldır. Çox xoşbəxt oldum. Gözəl 75 illərə. Mən, eyni zamanda,



Türkiyə–Azərbaycan Universitetinin qurulmasına da diqqət çəkmək istərdim. Bu, Türkiyə–Azərbaycan əlaqələri baxımından çox vacibdir. Bu, əslində, iki ölkənin yox, bütün türk dünyasının, Qafqazın Universiteti olacaq.

**Rumıniyanın Yas Universiteti Azərbaycan Multikulturalizmi Mərkəzinin direktoru, filologiya elmləri doktoru Lyudmila Bejenaru:**



– Bu gün çox önəmli bir tarixi hadisənin şahidləri olduq. Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə bağlı keçirilən konfrans öz unikallığı və əhəmiyyəti ilə diqqəti cəlb etməyi bacardı. Qeyd etmək istəyirəm ki, bu il həm də ADU-nun 75 illiyi keçirilir. Qədim tarixi köklərə və ənənələrə sahib müasir ali təhsil ocağı olan Azərbaycan Dillər Universitetinin rəhbərliyini və bütün kollektivini yubiley münasibətilə təbrik edir, ən xoş arzularımı bildirirəm.

*"Xalq qəzeti"*

---

**İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı və Bakı Sağlamlıq Mərkəzinin təşəbbüsü ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Çağdaş təbabət: Yeniliklər və müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilir.**

# Çağdaş təbabət: Yeniliklər və müasir yanaşmalar





Universitetin Bakı filialının rektoru Əziz Əliyev Heydər Əliyevin Azərbaycan səhiyyəsinin inkişafına verdiyi töhfədən danışıb.

Əziz Əliyev xatırladıb ki, Universitetin Bakı filialı Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılıb. Onun dəstəyi nəticəsində filialın klinik bazalarına Azərbaycan klinikaları, o cümlədən, Bakı Sağlamlıq Mərkəzi daxil edilib. Tələbələrə təbabət sahəsində dünya standartlarına uyğun dərslər keçirilir.

Rektor hazırda universitetdə 700-dən çox tələbənin təhsil aldığını bildirib: "Filialın ilk buraxılışı 2021-ci ildə olub və hər il filialı 125 məzun bitirir".

Konfrans işini bu gün bitirəcək.

# "Heydər Əliyev və Azərbaycan elmi"

**Naxçıvan Dövlət Universitetində "Heydər Əliyev və Azərbaycan elmi" mövzusunda elmi konfrans keçirilib. Məclisi giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev ümummilli lider Heydər Əliyevin Azərbaycan elminin inkişafındakı misilsiz xidmətlərindən danışıb.**

Konfransda bildirilib ki, elm sahəsində qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin mühüm şərti kimi nəzərdən keçirən ulu öndər Azərbaycana rəhbərliyinin bütün dövrlərində bu sahəyə diqqət və qayğısını əsirgəməyib, daim milli elmimizin qüdrətli hamisi kimi çıxış edib. Ulu öndər Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirilir. Diqqətə çatdırılıb ki, elmin inkişafına göstərilən yüksək diqqət, eyni zamanda, Azərbaycanın güclənməsinə, inkişafına, dünya miqyasında tanınmasına və layiqli yerinin təmin olunmasına xidmət edir.

Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü Muxtar İmanov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Asəf Zamanov Azərbaycanda elmin inkişafında, yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında və attestasiyasında, respublikamızın intellektual potensialının formalaşması və gücləndirilməsində, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiq imkanlarının genişləndirilməsində, demokratik dövlətçiliyimizin və azərbaycançılıq məfkurəsinin möhkəmlənməsində, güclü iqtisadiyyatımızın qurulmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən danışıblar.



Natiqlər qeyd ediblər ki, ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin istər birinci, istərsə də ikinci dövründə elm sahəsi yüksək intensiv inkişaf edib, respublikamızda güclü kadr potensialı formalaşıb. Ümummilli lider ölkədə elmin və texnikanın inkişafına hərtərəfli diqqət və qayğı göstərib və bu ənənə hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam ev etdirilir.

Sonra Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Sənəddə birgə elmi tədqiqatlar aparmaq, layihələr həyata keçirmək, elmi-tədqiqat məlumatlarının və texniki materialların mübadiləsini həyata keçirməklə bərabər, akademik heyətin mübadiləsini təşkil etmək, birgə elmi yığıncaqlar təşkil etmək, ortaq innovativ layihələr hazırlamaq və yaradılmış innovativ texnologiyaların və məhsulların tətbiqi üçün şərait yaratmaq məsələləri öz əksini tapıb.

*Səbuhi HƏSƏNOV,*
*"Xalq qəzeti"*

**NAXÇIVAN**

# Baş nazir Əli Əsədov qazaxıstanlı həmkarı Alixan Smailov ilə görüşüb

## *Azərbaycan ilə Qazaxıstan arasında bir sıra sənədlər imzalanıb*



**İyunun 22-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Qazaxıstan Respublikasının Baş naziri Alixan Smailov ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, hökumət başçıları əvvəlcə təkbətək görüş keçiriblər. Görüşdə ikitərəfli gündəliyin aktual məsələlərinə toxunulub.

Sonra Baş nazirlər Əli Əsədov və Alixan Smailov nümayəndə heyətlərinin iştirakı ilə görüşü davam etdiriblər.

Görüşdə Alixan Smailovun Qazaxıstanın Baş naziri vəzifəsinə yenidən təyin olunmasından sonra ilk xarici səfərini məhz Azərbaycana etməsindən məmnunluq ifadə olunub.

Qeyd edilib ki, ötən il Azərbaycan və Qazaxıstan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlamətdar olub. Bu illər ərzində iki ölkə bütün sahələrdə konstruktiv dialoq və qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına nail olub.

Vurğulanıb ki, prezidentlər İlham Əliyevin və Kasım-Jomart Tokayevin birgə səyləri ilə Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlığı bu gün bütün istiqamətlər üzrə inkişaf edir və genişmiqyaslı xarakter daşıyır.

Tərəflər ali səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin iki ölkənin səmərəli əlaqələrinə böyük töhfə verdiyini qeyd ediblər. Azərbaycan Prezidentinin cari ilin aprelində Qazaxıstana uğurlu rəsmi səfəri bunun növbəti təsdiqi kimi qiymətləndirilib.

Səfər çərçivəsində bir sıra mühüm sənədlərin imzalanmasının əhəmiyyəti vurğulandı, bunlardan ən mühümünün "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Protokol"un olduğu qeyd edilib.

Baş nazir Əli Əsədov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Qazaxıstanda tədbirlərin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib.

Hökumət başçıları Qazaxıstan Prezidentinin Azərbaycana ötənilki rəsmi səfərinin səmərəli nəticələrini də qeyd ediblər. Vurğulanıb ki, bu səfər bir sıra çox mühüm sənədlərin imzalanması ilə də əlamətdardır. Xüsusilə "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" Azərbaycan-Qazaxıstan əlaqələrini keyfiyyətcə yeni səviyyəyə yüksəldib.

Qazaxıstan Prezidentinin işğaldan azad edilən Füzuli şəhərində uşaqlar üçün Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin inşası təşəbbüsünə görə minnətdarlıq ifadə olunub.

Qeyd edilib ki, Azərbaycan və Qazaxıstan arasında əməkdaşlığın əsas istiqamətini ticari-iqtisadi əlaqələr təşkil edir. Tərəflər 2022-ci ildə əmtəə dövriyyəsinin əhəmiyyətli şəkildə – təxminən 4,5 dəfə artaraq 600 milyon dollar həddinə çatmasından məmnunluq ifadə ediblər. İki ölkənin iqtisadi inkişaf səviyyəsi və potensialı nəzərə alınmaqla, yeni göstəricilərə nail olmaqdan ötrü bundan sonra da birgə səylərin ortaya qoyulacağına hazırlıq təsdiqlənib.

Ticari-iqtisadi əlaqələrin inkişafı məsələlərinin həllində Birgə hökumətlərarası komissiyanın rolu qeyd olunub.

Görüşdə nəqliyyat-logistika əlaqələrinə prioritet əhəmiyyət verilməsi vurğulanıb. Transxəzər beynəlxalq nəqliyyat marşrutunun (Orta Dəhliz) əhəmiyyəti xüsusi qeyd olunub. Ötən il Azərbaycan və Qazaxıstan arasında yükdaşımaların ümumi həcminin təxminən 3 dəfə, tranzit yükdaşımalarının isə 3,2 dəfə artmasından məmnunluq ifadə edilib. Orta Dəhliz ilə yüklərin nəqlinin artırılmasına dair dövlətlərimizin başçılarının tapşırıqlarının hökumətlər xətti ilə icra edilməsinə tərəflərin sadiqliyi ifadə olunub.

Baş nazirlər neft-qaz sahəsində əməkdaşlığın müsbət məcrada inkişafını vurğulayıb, Qazaxıstan neftinin cari ildə Azərbaycan vasitəsilə üçüncü ölkələrin bazarına tədarükə başlanmasını məmnunluqla qeyd ediblər.

İki ölkənin kənd təsərrüfatı, mədəni-humanitar və digər sahələrdə qarşılıqlı əlaqələri müsbət qiymətləndirilib.

Hökumət başçıları, həmçinin bir sıra digər sahələrdə, o cümlədən yüksək texnologiyalar, telekommunikasiyalar və bərpaolunan enerji sahələrində qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər.

Azərbaycan və Qazaxıstan arasında danışıqların yekunlarına əsasən aşağıdakı sənədlər imzalanıb:

"AzerTelecom" MMC ilə "Kazakhtelecom" SC arasında Səhmdarlar Müqaviləsi";

"Azərbaycan Dəmir Yolları" QSC, "Qazaxıstan Dəmir Yolları Milli Şirkəti" SC və "Gürcüstan Dəmir Yolları" SC arasında birgə müəssisənin yaradılması və fəaliyyətinin əsas prinsipləri haqqında Saziş";

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz Milli Şirkət" SC arasında Qazaxıstan neftinin Azərbaycan Respublikasının ərazisindən tranzitinə dair strateji əməkdaşlıq haqqında Memorandum";

"Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Qazaxıstan Respublikasının Mədəniyyət və İdman Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu";

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Qazaxıstan Respublikasının Mədəniyyət və İdman Nazirliyi arasında idman sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu";

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Qazaxıstan Respublikasının Mədəniyyət və İdman Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu";

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Qazaxıstan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında 24 may 2005-ci il tarixli Saziş"in icrası ilə bağlı 2023-2024-cü illər üçün Tədbirlər Planı";

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Sənaye və İnfrastrukturun İnkişafı Nazirliyi arasında Görüşün Protokolu";

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Sənaye və İnfrastrukturun İnkişafı Nazirliyi arasında nəqliyyat sahəsində qarşılıqlı fəaliyyətin genişləndirilməsi və Orta Dəhlizin rəqəmsallaşdırılması üzrə əməkdaşlıq Memorandumu";

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Sənaye və İnfrastrukturun İnkişafı Nazirliyi arasında gəmilərin və dəmir yolu lokomotivlərinin təchizatı sahəsində əməkdaşlıq haqqında Memorandum".

*"Xalq qəzeti"*

**Açılış mərasimində Baş prokuror Kamran Əliyev, Azərbaycanın hərbi prokuroru Xanlar Vəliyev, Baş Prokurorluğun rəhbər heyəti, eləcə də prokurorluğun veteranları iştirak ediblər.**

# Laçın Rayon Prokurorluğunun yeni inzibati binası




Baş prokuror bildirib ki, Laçın Rayon Prokurorluğunun Laçın şəhərində inzibati binasının açılışı prokurorluq orqanlarının tarixində əlamətdar hadisələrdən biri olmaqla hər bir prokurorluq işçisini sevindirir. Bu hadisə prokurorluq orqanlarının tarixinə qızıl hərflərlə yazılacaq.

Prokurorluq əməkdaşlarının xidmətlərinin daha səmərəli və peşəkar təşkil edilməsi üçün yaradılan yüksək şəraitə, eləcə də müasir maddi-texniki təminata və təchizata görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq ifadə olunub.

* * *

Laçın Rayon Prokurorluğunun yeni inzibati binasının açılış mərasimindən sonra Baş Prokurorluğun rəhbərliyinin, Şərqi Zəngəzur iqtisadi rayonunda daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov və işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən tabe rayon və ərazi hərbi prokurorlarının iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.

Baş prokuror Kamran Əliyev zəruri tapşırıq və göstərişlərini verib.

* * *

Dünən Baş prokuror Laçın və Qubadlıda Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti və Daxili Qoşunlara məxsus hərbi hissələrdə olub, əsgər və zabitlərlə görüşüb.

Sonra bir qrup hərbiçiyə Silahlı Qüvvələr Günü münasibətilə qiymətli hədiyyələr təqdim olunub.

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*

# "Chatham House"da Azərbaycan–Ermənistan normallaşma prosesi barədə danışılıb

**İyunun 22-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Birləşmiş Krallığa işgüzar səfəri çərçivəsində qabaqcıl beyin mərkəzlərindən biri olan Kral Beynəlxalq Münasibətlər İnstitutunda (Chatham House) təşkil edilmiş dəyirmi masa müzakirələrində çıxış edib.**



Tədbirdə Azərbaycan–Birləşmiş Krallıq münasibətləri, qlobal və regional təhlükəsizlik məsələləri, o cümlədən, enerji təhlükəsizliyi, Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi, sülh gündəliyi, Ermənistanın sülh prosesinə xələl gətirən hərbi-siyasi təxribatları, mövcud mina təhlükəsi, işğaldan azad edilmiş ərazilərin reabilitasiyası və yenidən qurulması, habelə əhalinin reinteqrasiyası istiqamətində Azərbaycan tərəfindən atılan addımlar və digər məsələlər müzakirə olunub.

# Bir əsrin iqtisadi nəticələri

**Dünən Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Heydər Əliyev Mərkəzi və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə V İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransı işə başlayıb. "Heydər Əliyev İli" çərçivəsində təşkil edilən konfrans "Bir əsrin iqtisadi nəticələri" mövzusuna həsr olunub.**



UNEC tərəfindən nəşr olunan "Türk dövlətləri işbirliyi: Mövcud vəziyyət, potensial imkanlar və gələcəyə istiqamətlənmiş perspektivlər", "Exploring The Green Economy: Issues, Challenges and Benefits" və "Strateji idarəetmə" kitabları da konfransda nümayiş olunub.

Rektor Ədalət Muradov bildirib ki, beynəlxalq elmi platformaların daimi üzvü olan və bu il beşinci dəfə keçirilən beynəlxalq konfrans özünəməxsus nailiyyətləri ilə elmi ənənəyə çevrilib. Rektor konfransda Böyük Britaniya, İsveçrə, Avstriya, Macarıstan, Türkiyə, İsrail, Ukrayna, Rumıniya, Özbəkistan, Qırğızıstan və Qazaxıstan kimi ölkələrin nüfuzlu 13 universitetinin tərəfdaş qismində iştirak etdiyini deyib.

Elm və təhsil naziri Emin Əmrullayev, İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, TÜRKSOY-un Baş katibi Sultan Raev, Fransanın Azərbaycanda ilk səfiri olmuş Jan Perenin və ABŞ-ın Klivlend Klinikasının həkimi Şapur Ənsari Ulu öndərin əvəzsiz xidmətlərindən danışıblar.

*"Xalq qəzeti"*

# Ombudsmanın əsir hərbçilərimizlə bağlı müraciəti

**Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistan tərəfindən əsir götürülmüş və qanunsuz olaraq azadlıqdan məhrum edilmiş hərbi qulluqçularımızın dərhal azad olunması ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət edib.**



Müraciətdə qeyd edilib ki, aprel ayında Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində itkin düşməklə Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan Ordusunun əsgərləri Bəbirov Aqşin Qabil oğlu və Axundov Hüseyn Əhliman oğlu saxta ittihamlarla azadlıqdan məhrum olunublar.

Hesab edirik ki, Ermənistanda saxta məhkəmə hökmü ilə tamamilə qanunsuz olaraq azadlıqdan məhrum edilmiş hərbi qulluqçularımız dərhal azad edilməlidirlər.

*"Xalq qəzeti"*

# DTX Azərbaycan vətəndaşı olan 13 terrorçunu həbs etdi

**Dövlət Təhlükəsizliyi Xidmətində aparılmış araşdırmalar nəticəsində Azərbaycan vətəndaşlarından ibarət, ölkə hüdudlarından kənarda terror aktlarının törədilməsi ilə müşayiət olunan, dini düşmənçilik, dini radikalizm və dini fanatizm zəminində aparılan silahlı münaqişələrdə iştirak etmək məqsədilə qeyri-leqal yollarla Suriya Ərəb Respublikasının ərazisinə keçdikdən sonra həmin dövlətin İdlib şəhərində xüsusi hazırlıq düşərgəsində təlimlərə cəlb olunaraq müxtəlif növ odlu silahlardan istifadə qaydalarına yiyələnmiş, "Taifatul Mansura" adlı qanunsuz silahlı dəstənin tərkibində döyüşlərdə iştirak etmiş sabit qrupun üzvləri müəyyən olunub və barələrində beynəlxalq axtarış elan edilib. Bu barədə DTX məlumat yayıb.**

Məlumatda deyilir ki, başlanılmış cinayət işi üzrə həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə yuxarıda qeyd olunan cinayət əməllərini törətmiş 13 nəfər Azərbaycan vətəndaşının – Abdullayev Şamil Töhüd oğlu, Ağamətov Murad Əlibala oğlu, Quliyev Murad Firudin oğlu, Rüstəmov Fərhad İsə oğlu, Sultanov Sultan İdris oğlu, Hüseynov Nəcməddin Nəzir oğlu, Mahmudov Hikmət Sahib oğlu, Əliyev Mais Telman oğlu, İsmayılov İsmayıl Aydın oğlu, Babayev Şəhriyar Rahim oğlu, Muradov Hacı Arif oğlu, Baxışov Əlövsər Əlisafa oğlu və Əsədov İntiqam Şirin oğlunun xarici ölkə ərazisində gizləndikləri yerlər müəyyənləşdirilib və onlar beynəlxalq axtarışa dair qarşılıqlı hüquqi yardım proseduru çərçivəsində müvafiq tədbirlərlə saxlanılaraq Azərbaycana gətirilib.

Sözügedən şəxslər Cinayət Məcəlləsinin 283-1.3-cü (Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədilə qeyri-qanuni silahlı birləşmələrə və ya qruplara qoşulma, həmçinin belə birləşmələrdə və ya qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunub, məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Hazırda kompleks istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# COVID-19 infeksiyasına 7 yoluxma faktı qeydə alınıb

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 7 yoluxma faktı qeydə alınıb, 1 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, indiyədək ölkədə ümumilikdə 831 min 918 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 821 min 603 nəfər müalicə olunaraq sağalıb, 10 min 282 nəfər vəfat edib. Aktiv xəstə sayı 33 nəfərdir.




Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 649, bu günə qədər isə ümumilikdə 7 milyon 640 min 12 test icra olunub.

# Qeyri-neft ixracı artır

## Son 5 ildə bu göstərici 3 milyard dolları ötüb

**İqtisadiyyat nazirinin müavini Elnur Əliyev "İnsan resursları zirvəsi– 2023" forumu çərçivəsində keçirilən "Neft kapitalından insan kapitalına keçiddə dövlətin rolu" panel müzakirəsində Azərbaycanın 2022-ci ildə qeyri-neft sektorunda ixracının 3 milyard ABŞ dollarını ötdüyünü qeyd edib.**



Nazir müavini, həmçinin belə bir mühüm nailiyyətin çoxçeşidli iqtisadiyyatın inkişafı istiqamətində səylərin parlaq nümunəsi olduğunu, eyni zamanda, həmin göstəricinin artırılmasına yönələn fəaliyyətin hazırda uğurla davam etdirildiyini deyib. Onun sözlərinə görə, Azərbaycanda bu gün qeyri-neft məhsullarının rəqabət qabiliyyəti üçün hüquqi rejimlərin nəzərdən keçirilməsi, müxtəlif ölkələr, sərbəst bazarlarla preferensial ticarət sazişlərinin imzalanması üzrə danışıqlar aparılır.

Xatırladaq ki, 2018-2022-ci illər ərzində sənaye məhsulları ixracının əmtəə nomenklaturası 884-dən 1204-dək, kənd təsərrüfatı məhsulları ixracının əmtəə nomenklaturası isə 307-dən 332-dək artıb. 2018-2022-ci illərdə ölkəmizin qeyri-neft ixracı həm faktiki qiymətlərdə, həm də real ifadədə 1,72 milyard dollardan 3,05 milyard dolladək artıb.

Ekspertlərin fikrincə, respublika iqtisadiyyatında belə yüksək göstəricilərin əldə olunması, ilk növbədə, ölkədə investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması və qeyri-neft sektorunun inkişafına xüsusi önəm verilməsi ilə bağlıdır. Bütün bunlarla bərabər, mövcud dinamikanı şərtləndirən sahibkarların ixrac potensialının gücləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi kimi amillər də daim prioritetlər sırasındadır.

Son illərdə respublikada qeyri-neft sektorunun şaxələndirilməsi, Azərbaycan məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi nəticəsində yüksək göstəricilər əldə olunub. Məsələn, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın iyun sayına əsasən, cari ilin yanvar-may aylarında respublikamızın ümumi ixracı 16,1 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə 1,5 milyard ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 22,1 faiz artıb.

Bu ilin yanvar-may ayları ərzində yeyinti məhsulları üzrə ixrac 334,4 milyon ABŞ dollarına bərabər olub. İlin ilk 5 ayı ərzində spirtli və spirtsiz içkilərin ixracı 5,9 dəfə, şəkər ixracı 43,8 faiz, meyvə-tərəvəz ixracı isə 10,4 faiz artıb. Hesabat dövründə aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 16,9 faiz artaraq 349,1 milyon ABŞ dolları təşkil edib.

Cari ilin yanvar-may aylarında qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 55,8 faiz artaraq 92,2 milyon ABŞ dolları təşkil edib. Təkcə bu ilin may ayında qeyri-neft ixracı 278,2 milyon ABŞ dolları olub.

Azərbaycanda qeyri-neft ixracının artmasına təsir göstərən mühüm amillərdən bir qismini diqqətə çatdırmaq istərdik:

–İqtisadiyyat Nazirliyi tərəfindən verilən investisiya təşviqi sənədi sənaye, kənd təsərrüfatı, logistika və turizm sahələri ilə məşğul olan hüquqi şəxs və fərdi sahibkarlara vergi və gömrük güzəştlərindən yararlanmaq imkanı yaradır;

–qeyri-neft-qaz sənayesinin inkişafı istiqamətində həyata keçirilən layihələr, xüsusilə son illərdə yaradılan sənaye parklarının fəaliyyəti önəmli rol oynayır;

–son illərdə qeyri-neft sənaye sahələri modernləşdirilib və strukturu təkmilləşdirilib, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli, elmtutumlu və innovativ istehsalı genişləndirilib. Sənayedə istehsalın diversifikasiyası diqqətdə saxlanılıb;

–qeyri-neft-qaz ixracının həm faktiki qiymətlərlə, həm də real ifadədə artmasına xarici ticarət fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi, "Gömrük tarifi haqqında", "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında"qanunları və digər müasir normativ hüquqi aktlar da öz müsbət təsirini göstərib.

Beləliklə, yuxarıda sadalanan prioritet məsələlərlə bərabər, qeyri-neft sənayesində həyata keçirilən uğurlu struktur-institusional islahatlar nəticəsində özəl sektorun payı əhəmiyyətli dərəcədə artıb, ÜDM-də özəl sektorun xüsusi çəkisi 80 faizi ötüb. Bundan başqa, iqtisadiyyatda kiçik və orta biznesin dominantlığı xeyli güclənib. Xüsusilə dövlət investisiyaları hesabına yaradılan müasir iqtisadi infrastruktur kiçik və orta sahibkarlığın inkişafını sürətləndirib.

Biznesin bütün bazarlarda səmərəli fəaliyyəti üçün zəruri şərtlərin təmin olunması, iqtisadiyyata cəlb edilən investisiyaların, mülkiyyətçilərin mülkiyyət toxunulmazlığının, onların iqtisadi maraqlarının qorunması məqsədilə müəyyən layihələr gerçəkləşdirilib.

Bütün yuxarıda sadalanan amillər hesabına qeyri-neft-qaz sektorunda yüksək keyfiyyətli məhsul istehsal edilməsi, sənaye məhsullarının xammaltutumlu olmaqla, beynəlxalq bazarda əhəmiyyətli rəqabət şəraitinə malik olması, markalaşmış məhsulların istehsalının davamlı şəkildə artırılması bu sahədə ixracın həcmini və dəyərini artırıb.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

### Ekspert rəyi

**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**



Dünyada baş verən iqtisadi təlatümlər fonunda ölkəmizin iqtisadi göstəricilərinin artması qürurvericidir. Prezident İlham Əliyev tərəfindən aparılan çoxşaxəli, uğurlu siyasət nəticəsində Azərbaycan dünyanın sürətli inkişaf tempinə malik olan ölkələrindən birinə çevrilib. Təbii ki, ümumi iqtisadi göstəricilər arasında qeyri-neft sektorunun payı da artmaqdadır.

Ölkə iqtisadiyyatının şaxələndirilməsi ixrac potensialının strukturuna müsbət təsir göstərir. Belə ki, əvvəlki illərdən fərqli olaraq elektrik enerjisinin ixracatı ənənəvi kənd təsərrüfatı məhsullarını getdikcə üstələyir. Strukturda keyfiyyət baxımından dəyişikliklər müşahidə edirik. Bu da birbaşa onunla bağlıdır ki, Azərbaycan əvvəlki illərdən fərqli olaraq yalnız xammal məhsulları deyil, eyni zamanda, emaledici məhsulları da dünya bazarına çıxarır. Belə bir hal, təbii ki, qeyri-neft ixracatının dayanıqlığı baxımından çox vacibdir.

Son zamanlar Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlər nəticəsində uğurlu naliyyətlər əldə edilib, qeyri-neft sektorunun ixrac potensialı, həmçinin bu sektor üzrə vergi daxilolmaları əhəmiyyətli dərəcədə yüksəlib.

Araşdırmalar göstərir ki, qeyri-neft sektorunda iqtisadi fəaliyyətin kiçik və ota biznes tərəfindən həyata keçirilməsi təkmil rəqabətin təmin olunmasına, müəssisələrin dəyişən bazar şəraitinə asanlıqla uyğunlaşmasına, istehsal edilən məhsulun keyfiyyət standartlarının daim yüksəlməsinə, menecment,t exnologiya və s. sahələrdə innovasiyaların tətbiqinin stimullaşdırılmasına imkan verir.

Qeyd etmək lazımdır ki, son dövrlər Azərbaycanda aparılan islahatlar sahibkarlığın iqtisadiyyatda rolunun yüksəldlməsinə imkan verib. Başqa sözlə desək, iqtisadiyyatda aparılan institusioal dəyişikliklər, özəlləşdirmə, azad sahibkarlığın gerçəkləşdirilməsini tənzimləyən hüquqi bazanın yaradılması özəl iqtisadi təşəbbüslərin aparıcı rol oynamasına gətirib çıxarıb.

Son dövlərdə qeyri-neft sektorunda sahibkarlıq fəaliyyəti mühitinin yaxşılaşdırılması nəticəsində iqtisadiyyatda xarici investorların və milli sahibkarların sərmayə qoyuluşlarının həcmi xeyli artıb. Bütün bunlar dövlət tərəfindən qeyri-neft sektoruna göstərilən diqqətin nəticəsidir.



# Nağdsız ödənişə keçid sürətlənir

**Son illər Azərbaycanda nağdsız ödəniş sistemlərinin payı getdikcə artır. Bunun da əsas səbəblərindən biri rəqəmsal innovasiyalar dövründə qlobal maliyyə bazarlarının transformasiyaya məruz qalmasıdır. Bu isə öz növbəsində yeni nağdsız ödəniş həllərinin tətbiqi ilə nəticələnir.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Nicat Hacızadənin bildirdiyinə görə, Azərbaycanda son illər kölgə iqtisadiyyatı ilə mübarizə sahəsində həyata keçirilən tədbirlərin nəticəsi olaraq müvafiq dövlət qurumları nağdsız əməliyyatların istehlakçılar və biznes subyektləri arasında əhatə dairəsinin genişləndirilməsi məqsədilə müxtəlif tədbirlər planı icra edirlər. Departament rəhbərinin sözlərinə görə, 2016-cı ildə mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sisteminin inkişafını sürətləndirmək məqsədilə "Nağdsız hesablaşmalar haqqında Azərbaycan Respublikasının Qanunu"nu da qəbul edilən bu qərarlar sırasındadır.

N. Hacızadə, həmçinin deyib ki, sosial-iqtisadi inkişaf istiqamətində hökumət və müvafiq monetar institutların qarşısında duran tədbirlərə kölgə iqtisadiyyatına qarşı ölkə daxilində mübarizə və nağdsız əməliyyatların ev təsərrüfatları və biznes subyektləri arasında geniş yayılması, habelə ödəmələr istiqamətində maliyyə infrastrukturunun təkmilləşdirilməsi kimi prioritetlər daxildir.

Xatırladaq ki, Azərbaycanda ilk rəqəmsal həllərin tətbiqinə 2019-cu ildən etibarən başlanılıb. Ötən müddətdə ölkəmizdə bu sahədə kifayət qədər ciddi uğurlar əldə olunub. Azərbaycanda nağdsız ödəniş sistemləri ilə bağlı aparılmış araşdırmalar nəticəsində məlum olub ki, ölkəmizdə əvvəlki dövrlərlə müqayisədə ödəniş sistemlərində ciddi dəyişikliklər müşahidə olunur. Təkcə onu qeyd etmək kifayətdir ki, 2022-ci ildə ölkə daxilində kartlarla ödənişlərin həcmi 55,980 milyon manat təşkil edib. Cari ilin əvvəlindən isə bu sahədə artım tendensiyası bir qədər də sürətlənib. Azərbaycan Mərkəzi Bankının məlumatına görə, bank və "Azərpoçt" MMC sistemləri üzrə 2023-cü il aprel ayının sonunda dövriyyədə olan ödəniş kartlarının sayı əvvəlki aya nisbətən 219 min ədəd artaraq 14 milyon 465 min ədəd təşkil edib. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,5 faiz çoxdur. Bütövlükdə isə, ilin əvvəlindən ödəniş kartları ilə nağdsız əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 51,4 faizini təşkil edib.

Yeri gəlmişkən, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, hazırda Azərbaycanda 14 milyona yaxın şəxsdə kart var. Komitə sədrinin sözlərinə görə, son 5 il ərzində ölkədə ödəniş kartları vasitəsilə həyata keçirilən əməliyyatların həcmi təxminən 8 dəfə artıb. T. Mirkişili onu da qeyd edib ki, təkcə son bir il ərzində ödəniş kartları vasitəsilə 460 milyon dəfə əməliyyat keçirilib ki, bu da ötən 5 ildə 12 dəfə artım deməkdir. Ekspertlərin fikrincə, son zamanlar ölkəmizdə dövriyyədə olan kartlar vasitəsilə ödənişlərinin sayının artması texnoloji baxımdan yüksək təminatla bağlıdır. Eyni zamanda, son dövrlərdə bağlanılan əməkdaşlıq müqavilələri nəticəsində bir çox məşhur e-ticarət platformaları artıq ölkəmizdə fəaliyyətə başlayıb. Bu da Azərbaycan bazarında nağdsız ödənişlərin payının ciddi şəkildə artmasına səbəb olur.

Mərkəzi Bankın məlumatına əsasən, ödəniş kartlarında artım debet kartları üzrə 16,1 faiz, kredit kartları üzrə isə 27,2 faiz təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əməkhaqqı kartlarının sayı 105 min, kredit kartları 417 min, digər kartlar isə 1,6 milyon ədəd artıb. Heç şübhəsiz, ödəniş kartlarının artması nağdsız ödənişlərin həcminə də müsbət təsir göstərib. Belə ki, ölkədaxili nağdsız əməliyyatların həcmi ötən ilin müvafiq dövrünə nisbətən 1,9 dəfə artıb. Yeri gəlmişkən, 2023-ci ilin aprel ayı ərzində kartlar vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin həcmi 3 milyard 202 milyon manat təşkil edib. Hesabat dövründə həyata keçirilən nağdsız ödənişlərin 2 milyard 535 milyon manatı elektron ticarətin payına düşüb. Qalan məbləğin 663 milyon manatı POS-terminallar, 4 milyon manatı isə özünəxidmət terminalları vasitəsilə həyata keçirilib.

Mərkəzi Bankın baş direktoru Fərid Osmanov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iyunun 22-də keçirilən iclasında çıxışı zamanı bildirib ki, hazırda ölkədə 81 min terminal var. Bunun 55 mini Bakıda, təqribən 25 mini isə regionlarda fəaliyyət göstərir. Onun sözlərinə görə, ödəniş autenti ölkədə terminalların sayının artmasına təkan verəcək. Xatırladaq ki, autentifikasiya ödəniş xidməti təchizatçısına ödəniş xidməti istifadəçisinin kimliyini və ya ödəniş alətinin, o cümlədən ödəniş xidməti istifadəçisinin fərdiləşdirilmiş təhlükəsizlik məlumatlarının istifadəsinin etibarlılığını yoxlamağa imkan verən prosedurdur.

Azərbaycanda 2022-2023-cü illər arasında nağd ödənişlər üstünlük təşkil etsə də, nağdsız əməliyyatların davamlı artımı da müşahidə olunub. Bu isə müəssisələr və fiziki şəxslər tərəfindən rəqəmsal ödəniş üsullarının getdikcə daha çox mənimsənilməsindən xəbər verir. Ekspertlər hesab edirlər ki, nağdsız ödənişlərə keçid rahatlıq, təhlükəsizlik və gücləndirilmiş şəffaflıq da daxil olmaqla çoxsaylı üstünlüklər təklif edir, ümumi səmərəliliyə töhfə verir.

Göründüyü kimi, Azərbaycan çox sürətli şəkildə nağdsız ödənişə keçid edir. Qarşıdakı dövrlərdə isə texnoloji irəliləyişlər, təkmilləşdirilmiş infrastruktur sistemi rəqəmsal ödəniş həllərinin qəbulunu daha da sürətləndirəcək.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

# İnflyasiya tempi azalır

**Mərkəzi Bankın məlumatına əsasən, ötən ayda əvvəlki aya nəzərən 0,4 faizlik deflyasiya qeydə alınıb, illik inflyasiya 11,5 faiz təşkil edib ki, bu da keçən ilin sentyabr ayında qeydə alınan pik səviyyə ilə müqayisədə 4,1 faiz aşağıdır.**



Məlumatda illik ərzaq inflyasiyasının 12,7 faizə enməsi, tərəfdaş ölkələr üzrə orta çəkili inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin aşağı düşməsi, beynəlxalq yükdaşıma xərclərinin pandemiyadan əvvəlki səviyyədə qeydə alınması, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması və manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, eləcə də pul siyasəti qərarları ilə illik inflyasiya tempinin azalması vurğulanıb.

Bankın məlumatında daha sonra deyilir ki, qlobal maliyyə sistemində sabitliyin pozulması, bir sıra inkişaf etmiş ölkələrdə resessiya təhlükəsinin mövcudluğu və geosiyasi gərginlik müxtəlif kanallarla ölkəmizin inflyasiya proseslərinə təsir potensialını saxlayır. İdxal qiymətləri indekslərinin artım templəri ikirəqəmli səviyyədə qalır. Baza ssenari üzrə fərziyyələrlə 2023-cü ildə illik inflyasiyanın 8,3 faiz olacağı proqnozu dəyişməz qalır. Bununla belə son aylarda xarici inflyasiya təzyiqlərinin zəifləməsi, eləcə də ötən ildən bəri qəbul edilən pul siyasəti və makroprudensial siyasət qərarlarının təsiri ilin qalan dövründə inflyasiya proqnozunun azaldılmasına şərait yaradır.

***"Xalq qəzeti"***



# Avtomobillərin icbari sığorta yığımı 60 faiz çoxalıb

**2023-cü ilin yanvar-may aylarında ölkədə avtomobillərin icbari sığortası üzrə yığımlar 62 milyon 945,3 min manata çatıb. Azərbaycan Mərkəzi Bankının məlumatına görə, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 60 faiz və ya 23 milyon 613,3 min manat çoxdur. Belə ki, 2022-ci ilin yanvar-may aylarında bu sahədə 39 milyon 332,5 min manat sığorta haqqı yığılıb.**

Cari ilin 5 ayında avtomobillərin icbari sığortası üzrə ödənişlərin həcmi 39 milyon 101,5 min manat olub ki, bu da ötən ilin eyni dövrünə nisbətən 8,8 faiz və ya 3 milyon 159 min manat çoxdur. Xatırladaq ki, ötən ilin eyni dövründə bu sığorta növü üzrə ödənişlərin həcmi 35 milyon 942,5min manat olub.

Sığorta ödənişlərinə nisbətən yığımların daha çox artması son bir ildə avtomobillərin icbari sığortası üzrə zərərliliyi 32 faiz azaldıb. Belə ki, 2022-ci ilin yanvar-may aylarında sığorta şirkətləri bu sığorta üzrə topladıqları hər 100 manatdan 91,4 manatını ödənişə yönəltmişdirsə, cari ilin ilk 5 ayında bu rəqəm 62,1 manata enib.

***"Xalq qəzeti"***

# Yeni qaz yataqları işə salınacaq

**Dövlət Neft-Qaz Şirkətinin (SOCAR) vitse-prezidentinin müavini Vitali Bəylərbəyov "S&P Global"a müsahibəsində Azərbaycanın yeni qaz ehtiyatlarına malik ölkə olduğunu və həmin yataqların hasilatının planlaşdırıldığını bildirib. O, ötən ilin yayında Avropa İttifaqı (Aİ) ilə imzalanmış memorandumda bu mənbənin nəzərə alındığını vurğulayıb.**



Qeyd edək ki, 2022-ci ilin ortalarında Azərbaycan və Aİ arasında 2027-ci ilə qədər Avropaya qaz tədarükünün 20 milyard kubmetrə çatdırılması ilə bağlı anlaşma memorandumu imzalanıb. V. Bəylərbəyov bu məqsədə çatmağın çətin olacağından narahatlıq keçirməyə heç bir əsas olmadığını xatırladıb.

Yeri gəlmişkən, Azərbaycan iyul ayında quyuların işə salınacağı "Abşeron" yatağından yeni həcmdə qaz hasil etməyi planlaşdırır. Həmçinin "Azəri-Çıraq-Günəşli" və "Ümid-Babək" yataqlarındakı qaz laylarının işlənməsi hesabına da əlavə qaz həcmlərinin əldə olunacağı gözlənilir.

***"Xalq qəzeti"***

# Gədəbəydəki qızıl yatağını istismar edən şirkət kimindir?



**Son günlər Gədəbəydəki qızıl yatağının istismarı ilə məşğul olan şirkətlə bağlı müxtəlif fikirlər səsləndirilib. Həmin şirkətləri ölkədə bəzi şəxslərin adı ilə bağlamaq cəhdləri müşahidə edilib.**

"Qafqazinfo"nun şirkətlə bağlı əldə etdiyi məlumatlar göstərir ki, irəli sürülən iddialar heç bir fakta söykənmir.

Belə ki, "Söyüdlü" qızıl yatağı Böyük Britaniyada qeydiyyatdan keçmiş "Anqlo - Asian Mining" şirkəti tərəfindən istismar edilir.

"Anglo Asian Mining" şirkəti Azərbaycanın 8 qızıl yatağının (Gədəbəy, Qoşa, Ordubad Qrupu (Şəkərdərə, Misdağ, Ağyurt, Piyazbaşı, Diakçay), Söyüdlü, Qızılbulaq və Vejnəli perspektivli qızıl yataqları) işlənməsi layihəsinin operatorudur. Şirkətin əsas payçısı İran əsilli ABŞ vətəndaşı Rza Vəziriyə məxsus "R.V.İnvestment Group Services, LL USA" şirkətidir.

Yatağın öyrənilməsi və istismarı əsasən 3 mərhələyə ayrılır. Sonuncu dəfə yatağın öyrənilməsi və istismarı "Gədəbəy, Qoşa, Ordubad qrupu, Söyüdlu, Qızılbulaq və Vejnəli perspektivli qızıl filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 1997-ci il tarixli Sazişin şərtlərinə uyğun olaraq aparılıb.

"Gədəbəy, Qoşa, Ordubad qrupu, Söyüdlu, Qızılbulaq və Vejnəli perspektivli qızıl filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" R.V. İnvestment Group Services, LLC şirkəti ilə bağlanmış Sazişdə dəyişikliklər edilib və 2022-ci il iyulun 5-də təsdiqlənib. Aparılmış dəyişikliyə əsasən 882 kvadratkilometr sahə kontrakt sahəsinə daxil edilib. Əlavə edilmiş kontrakt sahəsinin əsas hissəsi Gədəbəy rayonu ərazisini əhatə edir.

Qeyd edək ki, müstəqilliyin ilk illərində bu şirkətin Azərbaycandakı qızıl yataqlarının istismarına cəlb edilməsinin iqtisadi əsaslardan daha çox, siyasi əhəmiyyəti olub. Belə addımlar ABŞ-ı münaqişənin həllində daha aktiv iştiraka sövq etmək məqsədi daşıyıb.

Hazırda Nazirlər Kabineti tərəfindən yaradılmış komissiya Gədəbəydə baş vermiş insidentlə bağlı araşdırmalara başlayıb. Bu tədbirlər çərçivəsində "Anglo Asian Mining" şirkətinin məsuliyyət dairəsi də müəyyən ediləcək.

# Dövlət Komissiyasının üzvləri Söyüdlü sakinləri ilə görüşdü



**Söyüdlü kəndində sakinlərlə görüşdük. Yerində cavablandıra biləcəyimiz sualları cavablandırdıq. Narazılıq yaradan bütün məsələlər yoxlanılacaq və aydınlıq gətiriləcək.**

Bunu Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün yaradılan komissiyanın sədri, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev sakinlərlə görüşdən sonra jurnalistlərə açıqlamasında bildirib.

Komissiya sədri vurğulayıb ki, artıq kənddə bu istiqamətdə monitorinq işlərinə başlanılıb və nəticələri qısa müddətdə ictimaiyyətə açıqlanacaq.

Qeyd edək ki, ötən gün Baş nazir Əli Əsədovun sərəncamı ilə Gədəbəy rayonunun Söyüdlü kəndində tullantıxana sahəsində monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə komissiya yaradılıb. Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev komissiyanın sədri təyin edilib.

Komissiyaya Söyüdlüdə tullantıxana sahəsində monitorinqlər aparmaq və mövcud vəziyyəti qiymətləndirmək, sakinlərin sağlamlığının və ətraf mühitin qorunması sahəsində vətəndaşların müraciətlərini araşdırmaq, monitorinqin və qiymətləndirmənin nəticələrinə uyğun olaraq müvafiq təkliflər hazırlayaraq Nazirlər Kabinetinə təqdim etmək tapşırılıb.

# Naxçıvanda əmək yarmarkası keçirilib

**Dünən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə Biznes Mərkəzində əmək yarmarkası keçirilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və digər rəsmi şəxslər yarmarkanın açılışında iştirak edib.**



Səlahiyyətli nümayəndə yarmarkanın önəmini vurğulayaraq, Muxtar Respublikanın Sosial-İqtisadi İnkişafına dair (2023-2027-ci illər) Dövlət Proqramı çərçivəsində Naxçıvanda minlərlə iş yerinin yaradılmasının hədəfləndiyini də diqqətə çatdırıb. Bildirib ki, muxtar respublikada aparılan sosial-iqtisadi islahatlar nəticəsində əlverişli biznes mühiti formalaşır. Azad iqtisadi zonaya çevrilən muxtar respublikaya investorlar böyük maraq göstərirlər. Fuad Nəcəfli qeyd edib ki, bundan sonra Naxçıvanda ayda bir dəfə əmək yarmarkası keçiriləcək və bu aksiya əhalinin məşğulluq imkanlarını daha da artıracaq.

Sonra səlahiyyətli nümayəndə yarmarkaya çıxarılan iş yerləri ilə tanış olub. Məlumat verilib ki, ümumilikdə, işaxtaranlara 110 müəssisədən 640 və haqqı ödənilən ictimai işlər üzrə 347 boş yer təklif olunur.

Qeyd edək ki, əmək yarmarkasında muxtar respublikada fəaliyyət göstərən 80 özəl müəssisədən 315 müxtəlif iş yeri çıxarılıb. "Naxtel" MMC tərəfindən təklif olunan iş yerləri 442 manatdan 1500 manatadək əməkhaqqı ilə işaxtaran vətəndaşlar üçün daha çox cəlbedici olub. "Cahan holdinq" isə yarmarkada müvafiq olaraq 450-1000 manat arasında əməkhaqqı ilə onlarla iş yeri təklif edib.

*Səbuhi HƏSƏNOV,*
*"Xalq qəzeti"*

# Ben Uolles NATO-nun baş katibi olmayacaq

**Yens Stoltenberq Şimali Atlantika Alyansının Baş katibi postunda qalacaq. Bunu Böyük Britaniyanın müdafiə naziri Ben Uolles "Economist" nəşrinə müsahibəsində deyib. Onun sözlərinə görə, ABŞ Yens Stoltenberqin NATO-nun Baş katibi postunda qalmasını istəyir. NATO-nun növbəti baş katibi alyansda həll edilməyən çox sayda problemlərlə qarşılaşacaq.**



"Yens Stoltenberqin xələfi həm Fransa Prezidenti Emmanuel Makronu, həm də ABŞ-ın dövlət başçısı Cozef Baydeni qane etməlidir", - deyə britaniyalı nazir əlavə edib.

"Economist" yazır ki, Ben Uolles yaxın vaxtlara qədər bu vəzifədə Yens Stoltenberqi əvəzləyəcəyinə ümid edirdi. ABŞ isə NATO-nun Baş katibi vəzifəsində, çox güman ki, Niderlandın Baş naziri Mark Ryutteni görmək istəyərdi, lakin o, artıq iki dəfə bu təklifdən imtina edib. NATO-nun baş katibi postunu ənənəvi olaraq Avropa ölkələrindən olan siyasətçi tutsa da, onun namizədliyi Ağ ev tərəfindən pərdəarxası təsdiqlənir.

Qeyd edək ki, Yens Stoltenberq 2022-ci il oktyabrın 1-də öz postunu tərk etməli idi. Lakin NATO-ya üzv ölkələrin namizəd barədə fikir ayrılığı səbəbindən onun mandatı 2023-cü il sentyabrın 30-dək uzadılıb.

Beləliklə, Böyük Britaniyanın müdafiə naziri Ben Uolles NATO-nun baş katibi postunu tutmayacağını açıqlayıb.

*"Xalq qəzeti"*

# AŞPA-nın qərəzli müzakirəsi Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlib



**Dünən Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyası zamanı Laçın yolu ilə bağlı müzakirələr aparılıb və məruzəçi Paul Qavanın hazırladığı qətnamə layihəsi qəbul olub.**

"AŞPA-da aparılan müzakirələr sülhə mane olur. Bu qətnamə qələmə verildiyi kimi təkcə insan hüquqlarını müdafiə etmək məqsədilə deyil, siyasi məqsədlə müzakirəyə çıxarılıb".

Bunu Azərbaycan Respublikasının AŞPA-da nümayəndə heyətinin rəhbəri Səməd Seyidov Laçın yoluna həsr olunmuş qətnamənin müzakirələri zamanı bildirib.

S.Seyidov daha sonra bildirib: "Məruzəçi qətnamədə Dağlıq Qarabağ kəlməsini çıxarmağa etiraz edir. Halbuki, Dağlıq Qarabağ kəlməsi artıq mövcud deyil. Qarabağ Azərbaycanın tərkib hissəsidir və ölkə səviyyəsində dağlıq sözünün çıxarılması haqqında qərar verilib. Burada aparılan söhbətlər Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlib. Heç kim deyə bilməz ki, Qarabağ əhalisi, habelə uşaqlar arasında acından ölüm halı baş verib. Heç kim deyə bilməz ki, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Qarabağa girişinə mane olunub".

*"Xalq qəzeti"*

# Ukrayna–Rusiya: Sonu görünməyən savaş



**Ukraynada ağır döyüşlər davam edir. Gün ərzində 40 hərbi toqquşma olub. Hazırda Ukrayna əsgərlərinin yaxşı hazırlanmış Rusiya müdafiə xəttini yarması çətindir.**

Bu barədə NATO-nun baş katibi Yens Stoltenberq Almaniyadakı hərbi sənaye müəssisələrindən birinə səfəri zamanı bildirib: "Əks-hücum hələ ilkin mərhələdədir. Biz bilirik ki, ukraynalıları çətin yol gözləyir. Onlar Rusiyanın ciddi müqaviməti ilə üzləşirlər. Rusiya hərbçiləri minalanmış sahələr, tank əleyhinə səngərlər və "əjdaha dişləri" ilə müdafiə xətləri çəkiblər. Ukrayna Silahlı Qüvvələrinə onların öhdəsindən gəlmək üçün müasir texnika lazımdır. Əgər alyans Ukraynada uzunmüddətli münaqişəyə hazır olmaq istəyirsə, ilk növbədə, etibarlı müdafiə sənayesinə diqqət yetirməlidir. Bu qarşıdurma getdikcə "logistika döyüşü"nə çevrilir".

Yens Stoltenberq Almaniyanın müdafiə naziri Boris Pistorius ilə birgə bəyanatında deyib: "Ən önəmlisi avadanlıqları, dəstək və müxtəlif tip sistemləri təmir edə bilən uzunmüddətli etibarlı müdafiə sənayesinə malik olmaqdır".

Ukrayna Silahlı Qüvvələrinin əks-hücum zamanı ciddi müqavimətlə qarşılaşdığını bu ölkənin dövlət başçısı Volodimir Zelinski və müdafiə nazirinin müavini Anna Malyar da təsdiq edir. Zelinski deyib: "Döyüş meydanında irəliləmə istədiyimizdən daha yavaş gedir".

Anna Malyar isə öz Telegram kanalında bildirib ki, ölkə silahlı qüvvələri əks-hücum əməliyyatları zamanı çətinliklərlə üzləşir və bu, Ukrayna hakimiyyətinin istədiyi qədər sürətlə getmir: "Aydındır ki, insanlar filmdəki kimi olmasını istəyirlər - montaj, çox tez, saat 13:00-da film başladı və 1 saat 20 dəqiqədən sonra bitdi. Və nə baş verdiyi aydındır". Onun qeyd etdiyi kimi, "həyatda belə olmur və müharibə tamamilə fərqli bir vəziyyətdir. Ukrayna Silahlı Qüvvələri şiddətli müqavimətlə qarşılaşır, çətinliklərlə, tədricən irəliləyir".

Yüksək çinli xanım Ukrayna ordusunun əks-hücumunun təsirliyini yalnız irəliləyə bildiyi kilometrlərlə və ya işğaldan azad olunmuş yaşayış məntəqələrinin sayı ilə qiymətləndirməyin düzgün olmadığını bildirib: "Hücumun nəticələrini qiymətləndirmək üçün bir çox meyarlar var. Ukrayna hərbçilərinin qarşısında bir çox vəzifələr qoyulub. Bunlar yerinə yetirilməlidir. Hücumun başladığı bütün istiqamətlərdə, az da olsa, irəliləyiş var. Ordusunun əsas zərbəsi isə hələ qabaqdadır".

Anna Malyar bildirib ki, bir sıra ərazilərdə Ukrayna Silahlı Qüvvələrinin döyüşçüləri hücum əməliyyatı keçirir, digər ərazilərdə isə müdafiəyə keçərək Rusiya ordusunun hücumunun qarşısını almağa çalışırlar.

Rusiya tərəfi isə əks-hücum zamanı Ukrayna ordusunun böyük itkilər verdiyini bildirir. İyunun 13-də hərbi komandirlərlə görüşündə Vladimir Putin Ukrayna qoşunlarının hücum zamanı böyük itkilər verdiyini və heç bir istiqamətdə uğur əldə etmədiyini söyləyib. İyunun 20-də Dövlət Dumasının Müdafiə Komitəsinin rəhbəri Andrey Kartapolov isə bildirib ki, Ukrayna Silahlı Qüvvələrinin əks-hücumunun dəf edilməsi "3 həftəyə" başa çatdırıla bilər. Bundan sonra, deputatın qeyd etdiyi kimi, Rusiya qüvvələri özləri "fəal hərəkətlərə" keçəcəklər.

Hazırda Rusiya hərbçiləri əsas səylərini şiddətli döyüşlərin getdiyi 4 istiqamətdə: Limanski, Baxmut, Avdeyevski və Maryinskidə cəmləşdirir. Bu istiqamətlərdə ağır döyüşlər davam edir. Bundan başqa, Rusiya Krımın müdafiəsini gücləndirməyə başlayıb. Armyansk şəhərindən 3,5 kilometr şimalda Krımı Xerson vilayəti ilə birləşdirən dar körpünün üzərində uzunluğu 9 kilometr olan geniş müdafiə zonası qurub. Rusiya üçün əsas məsələ yarımadaya nəzarətdir.

Ukraynanın Yujno-Donetsk, Zaporojye və Artyomovsk istiqamətlərində əks-hücum əməliyyatı iyunun 4-də başlayıb. Eyni zamanda, Ukrayna Silahlı Qüvvələrinin əsas zərbəsi cəbhənin Zaporojye istiqamətində cəmləşib. Kiyev NATO mütəxəssisləri tərəfindən təlim keçmiş və Qərb texnikası ilə silahlanmış briqadaları döyüşə atıb.

Rəsmi Kiyevin mövqeyinə görə, müharibə Ukraynanın bütün torpaqlarının, o cümlədən Krımın azad olunması ilə başa çatmalıdır. Bu planın həyata keçməsi üçün Qərbin hərbi yardımları davam edir. Artıq ABŞ Ukraynaya yeni hərbi yardım paketini elan edib. Bu paketin həcmi 1,3 milyard dollardır. Əvvəl də Vaşinqton Ukraynanı nə qədər lazımdırsa, dəstəkləməyə hazır olduğunu söyləmişdi.

Xatırladaq ki, bu müharibədə Rusiya tərəfi 222 minə yaxın hərbçisini itirib.

*Pünhan ƏFƏNDİYEV,*
*"Xalq qəzeti"*

“Muğam aləmi” VI Beynəlxalq Musiqi Festivalı

# Muğamsevərlərin böyük bayramı

**Günlərdir ki, Bakıda könül oxşayan bir muğam ruzgarı əsir. Dalğa-dalğa yarımadaya yayılan, Xəzərin sularında əks-səda verən çeşidli ahənrüba səslər ruhumuzun əvəzsiz mənəvi qidasına çevrilib. Zil harayı, bəm sığalı ilə hər kəsi sehirləyir. “Muğam aləmi” VI Beynəlxalq Musiqi Festivalı paytaxtı başdan-başa öz qanadları altına alıb...**



Muğam deyəndə adı İsfəndiyar olan, amma bu sənətin xanı olduğu üçün Xan Şuşinski kimi tanınan xanəndələr “əmi”si, “Cahargah”ı böyük məharətlə “mayə”dən yox, “Mənsuriyyə”dən başlayan, “Ağa” deyə çağrılan Seyyid Şuşinski, Əbülfət Əliyev, Yaqub Məmmədov, İslam Rzayev, Süleyman Abdullayev, eləcə də Şövkət Ələkbərova, Sara Qədimova, Fatma Mehrəliyeva, Tükəzban İsmayılova kimi ecazkar səs sahibləri yada düşür...

O böyük sənətkarlar dünyalarını dəyişəndə istər-istəməz düşünmüşük ki, ilahi səslər də ölərmi, qara torpağa gömülərmi? Amma muğama yeni nəsillər gəldikcə, istedadlar üzə çıxdıqca həmin







səslərin əbədi yaşadığına, sadəcə bir sinədən, bir boğazdan digərinə köçərək insanları heyrətləndirməkdə davam etdiyinə əmin olmuşuq.

Bir həftəyə yaxındır ki, davam edən “Muğam aləmi” VI Beynəlxalq Musiqi Festivalı Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə gerçəkləşir. Bu bənzərsiz bayramda ölkəmizi apreldə keçirilmiş Milli Muğam Müsabiqəsinin qalibləri layiqincə təmsil edirlər. Dünən–sraağagün Bakıda və Ağcabədidə, bu gün Şuşada zil səslərinin dağı-daşı tərpətdiyi konsertlərin emosional məna tutumu, dəramədin, ayrı-ayrı şöbə və guşələrin, hər şöbənin təsnif və rənginin əlvan çalarları bulaqların, çayların, quşların səsinə-sədasına qarışaraq könülləri ehtizaza gətirir.

İlk gündə Heydər Əliyev Sarayında Alim Qasımovun möhtəşəm konserti ilə başlanan musiqi bayramına gündə bir özəl və gözəl möhür vurulur. Həm elmi simpoziumlar, digər tədbirlər, həm də rəngarəng konsert proqramları festivalı daha da dolğunlaşdırır. Düşünürük ki, 2008-ci ildə Azərbaycan muğamlarının UNESCO-nun Qeyri-maddi mədəni irs Siyahısına daxil edilməsi ilə daha da canlanan muğam aləmi milli mədəniyyətimizin dərin köklərə malik olduğunu necə də sanballı şəkildə sübuta yetirir. NASA Azərbaycan muğamını “Voyacer” qızıl plastinkasına yerləşdirərək kosmik fəzaya göndərib və indi ilahi səsləri göydə ulduzlar belə dinləyib razılıqla “qımışır”.

Xalq artisti Səkinə İsmayılova, beynəlxalq müsabiqələr laureatı Etibar Əsədli, Hindistandan Vasumathi Badrinathan və Jyotsna Srikanth, Malidən Kankou Kouyaten, Əfqanıstandan Daud Khan Sadozai, İrandan Mahan Mirarab və başqaları paytaxtımızın musiqi məkanlarında konsertlərdə iştirakları ilə səs sənəti heyranlarının təqdirini qazanıblar.

Beynəlxalq festival çərçivəsində təşkil olunmuş elmi simpozium özünün geniş əhatəliliyi ilə seçilib. Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “Cadenza” orkestrinin, piano ifaçısı Tural Rafaelin, İordaniyadan Macadi Nahhas, Özbəkistandan İlyos Arabov, Tacikistandan Sardor Soliyevin ifaları musiqi bayramına rəng qatıb. Dahi Üzeyir bəyin doğulduğu Ağcabədi şəhərində muğam ifaçılarının iştirakı ilə konsert anşlaqla keçib. Artıq özlərini təsdiqləmiş xanəndələr İlkin Əhmədov, Günay İmamverdiyeva, Səbuhi İbayev, televiziya muğam müsabiqələrinin qalibləri və iştirakçıları Nisbət Sədrayeva, Babək Şuşalı, Vəfa Orucova və Sərxan Bünyatzadənin ifa etdikləri muğam və təsniflər alqışlarla qarşılanıb. Mədəniyyət paytaxtımız Şuşada müxtəlif məkanlarda da muğam və poeziya axşamları nəzərdə tutulub.

Dünən Bakıda Misirdən Mustafa Said və “Asil” ansamblı, Azərbaycandan Firudin Həmidov, Hindistandan Varijashree Venugopal, Jyotsna Srikanth, Yunanıstandan “En Chordais” ansamblı səhnəyə çıxıblar.

Festivalın xanəndəlik və instrumental ifa kateqoriyasında qaliblər müəyyənləşdirilib. Xanəndəlik kateqoriyası üzrə Mirəli Tağızadə 1-ci, Daşqın Kürçaylı 2-ci, Dostmurod Negmurodov (Özbəkistan) 3-cü yerin qalibi olublar. Qran-pri mükafatı Özbəkistandan olan Mohiçehra Şahmurotova təqdim edilib.

İnstrumental ifa kateqoriyası üzrə Anar Vəlizadə 1-ci, , Shoxijohan Yoriev (Özbəkistan) 2-ci, Cahandar Mikayılov 3-cü yerə layiq görülüblər. Bu kateqoriyada nəzərdə tutulmuş Qran-pri mükafatı ilə tarzən Vaqif Təhməzov təltif olunub.

**Xanəndə Mirəli Tağızadənin ürək sözləri:**

– Festivalda qalib adını almağıma çox sevinirəm. Bu böyük uğuru bütün Azərbaycan mədəniyyətinin qələbəsi kimi dəyərləndirir və buna görə müəllimim Təyyar Bayramova dərin minnətdarlığımı bildirirəm.

**Qalib iştirakçılar sırasında azərbaycanlı tələbələrinin olmasını yüksək qiymətləndirən Təyyar Bayramov isə dedi:**

– Fərqlənənlərin arasında mənim də yetirmələrimin olmasından son dərəcə məmnunam. Bu, bizim ümumi uğumuzdur. Bu münasibətlə gənclərimizin hər birini təbrik edir və qarşıdakı çətin sənət yolunda onlara uğurlar arzulayıram.

**Londondan festivala təşrif buyurmuş ingiltərəli musiqiçi Symon Brothen də söhbətə qoşuldu:**

– Muğamın bütün musiqi janrları içində ən mürəkkəb quruluşa və dərin fəlsəfi mahiyyətə malik olduğu etiraf edilməlidir. Onu mənimsəmək və ifa etmək, həqiqətən də, çətindir, onun çalarlarını ayırd edə bilmək, musiqinin ahənginə və ritminə dərindən bələd olmaq lazımdır. Festivaldan zövq alan bir qonaq kimi muğam tədbirinin təşkilatçılarına, münsiflər heyətinə və ifaçılara minnətdarlığımı bildirirəm.

Görüşlər, konsertlər davam edir. Sona yaxın, 24 saat ərzində eyni məkanda bir-birini əvəz edən 24 qrupun ifasında muğam marafonu və açıq havada “Muğam saatı” təşkil olunacaq. Festival çərçivəsində beynəlxalq müsabiqə də keçiriləcək. Xanəndəlik və instrumental ifaçılıq üzrə qalibləri Azərbaycan, Böyük Britaniya, İraq, Özbəkistan və Türkiyədən olan beynəlxalq münsiflər heyəti seçəcək. Son akkordlar isə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında bağlanış mərasimində vurulacaq, beynəlxalq müsabiqənin qalibləri mükafatlandırılacaq və möhtəşəm konsert proqramı təqdim olunacaq.

***Əli NƏCƏFXANLI,***
***Fidan SALMANOVA,***
***Elşən AĞALAR (foto),***
***“Xalq qəzeti”***

Nigar Rəfibəyli – 110

**Sumqayıtdan yola yenicə çıxmışdım ki, maşının radiosunda unudulmaz Xalq şairi Nigar Rəfibəylinin sözlərinə Xalq artisti Emin Sabitoğlunun bəstələdiyi musiqilərdən ibarət konsert proqramı başlandı. Həzin ruhlu nəğmələrin, illah da “Aman ayrılıq” mahnısının qanadlarında 30 kilometrlik məsafənin necə başa çatdığını hiss etmədim.**

# Təravətini saxlayan xanım-xatın poeziya

*Mən ki doymamışdım heç vüsalından,*
*Mənə zülm eylədi yaman ayrılıq.*
*Nə olardı bir gün durub yuxudan*
*Görəydim ki, olub yalan ayrılıq…*



Təəssüf ki, nə ayrılıqlar yalana çıxır, nə də kövrək xatirələr unudulur. Yadıma nə zamansa Nigar Rəfibəylinin haqqında oxuduğum xatirələr düşür. Xüsusilə də xəstəxanada olduğu vaxt həyat yoldaşı Rəsul Rzanın ölüm xəbərinin ondan gizlədilməsi. Halı pisləşər deyə, bunu ona bildirmirlər. Təəccüblənir ki, ömür-gün dostu niyə ona zəng vurmur. Rəsul Rzanın təzyiq üzündən nasazladığını və həkimlərin ona bir müddət telefondan uzaq qalmağı tapşırdığını söyləyirlər. İyunun 23-də Nigar xanımın ad günündə oğlu Anar bəy ona böyük bir yasəmən dəstəsi alıb aparır və deyir: “Rəsul bu gülləri Mərdəkandan sənə göndərib”. Evə qayıtdıqdan sonra 50 illik can sirdaşının yoxluğunu hiss edib yas saxlayır və bir həftə keçmir ki, o da haqq dünyasına qovuşur.



Bu günlərdə Nigar Rəfibəylinin anadan olduğu Gəncə şəhərindəki Xan bağında qoyulmuş heykəlinin qarşısında onun yubiley tədbiri keçirilib. AYB-nin və AMEA-nın Gəncə bölmələrinin təşkil etdikləri tədbirdə Nigar xanımın poetik dünyasının özünəməxsusluğundan, bəy qızı kimi mənəvi dünyasından danışılıb. Şairin yaradıcılığından nümunələr səsləndirilib.

Elə bu ay Nigar xanımın ruhunu şad edən daha bir tədbir Ankarada keçirilib. Xalq yazıçısı Anar Rzayevin anadan olmasının 85-ci ildönümü münasibətilə ona Beynəlxalq Türk Mədəniyyət Təşkilatı – TÜRKSOY-un 30 illik yubiley medalı təqdim edilib. Anarın Azərbaycan ədəbiyyatının inkişafına xidmətlərindən, türk dünyasının ədəbi-mədəni birliyinin möhkəmlənməsinə göstərdiyi köməkdən söhbət açılıb. Həmin mərasimdə Nigar xanımın nəvəsi Günel Anarqızı da çıxış edib. Təntənə Nigar Rəfibəyli və Rəsul Rzanın şeirlərinə bəstələnmiş məşhur mahnılardan ibarət konsertlə davam edib.

Anarın yazdığına görə, ailə borcu, analıq vəzifəsi, evin qayğıları Nigar xanımın yaradıcılığına mane olurdu. “Biz həmimiz onun vaxtını talayırdıq, onu yazı masasından ayırırdıq, hisslərini, duyğularını, fikirlərini dağıdıb pərən-pərən edirdik... Öz-özü ilə tək qalmasına imkan vermirdik, qəlbiylə baş-başa qalmağa macal tapmırdı”. Amma bütün bunlara baxmayaraq, Nigar Rəfibəylinin 35 kitabı çap edilibsə, deməli, əsl sənət aşiqi, yaradıcılıq fədaisi olub.

Qeyd edək ki, görkəmli şair, tərcüməçi Nigar Rəfibəyli Azərbaycan ədəbiyyatı qarşısındakı xidmətlərinə görə orden və medallarla təltif olunub, Əməkdar mədəniyyət işçisi və Xalq şairi adlarına layiq görülüb.

***Ə.DOSTƏLİ,***
***“Xalq qəzeti”***

# Mütaliə mədəniyyətdir

**"Xəzər Universiteti Nəşriyyatı"nda AMEA Ədəbiyyat İnstitutu Azərbaycan mühacirət ədəbiyyatı şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru Abid Tahirlinin “Məhəmməd Altunbayın həyatı və yaradıcılığı” adlı yeni kitabı nəşr olunub.**













Məhəmməd Altunbay Azərbaycanda repressiya dalğasının gücləndiyi illərdə köçüb getdiyi xaricdə ən fəal mücahidlərdən olub. M.Ə.Rəsulzadənin rəhbərliyi ilə 1949-cu ildə Ankarada təsis olunan Azərbaycan Kültür və Dayanışma Dərnəyinin yaradılmasında yaxından iştirak edib, mətbuatda məqalələri çıxıb. Həmin yazılar Azərbaycan istiqlal mücadiləsi tarixini, onun bayraqdarlarının həyat və fəaliyyətini işıqlandıran dəyərli mənbələrdir.

***

Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Vaqif Sultanlı və yazıçı-publisist İrəc İsmayılın birgə tərtib etdikləri “Ana dili – milli varlığın təməli” kitabında Azərbaycanın bir çox görkəmli alimlərinin dilin ayrı-ayrı problemlərinə həsr olunmuş məqalələri toplanıb.

Kitabda Azərbaycan türkcəsinin mifoloji qatları, folklor qaynaqları, tarixi kökləri, türk dilləri içərisində yeri, dilin adı və ədəbi dil normaları ilə bağlı məsələlər əhatə olunub. Həmçinin Güney Azərbaycanda 40 milyondan artıq türkün ana dilində təhsil imkanlarının olmaması milli dili təhdid edən mühüm amil kimi dəyərləndirilib.

***

Şair Akif Əhmədgilin tərcüməsində Hacı Zeynalabdin Tağıyevin 1886-cı ildə hazırladığı “Neft sənayesinin təcili ehtiyacları” hesabat-məqaləsi kitabça halında “Qanun” Nəşrlər Evində çap olunub.

Böyük neftxuda Tağıyevin həmin hesabatı Sənaye və Ticarətə Dəstək Cəmiyyətinin Bakı şöbəsinə müraciəti idi. Sənəddə neft sənayesi üzrə görülən işlər, yerli və xarici sərmayələr, sahənin inkişafı ilə bağlı çatışmazlıqlar rəqəmlər göstərilməklə geniş təhlil edilib.

Zamanında həmin hesabat böyük marağa səbəb olduğu üçün 1890-cı ildə “Kaspi” qəzeti tərəfindən rus dilində kitab halında nəşr olunmuşdu. Tərcüməçi həmin nəşri M.F.Axundov adına Milli Kitabxananın arxivindən əldə edərək dilimizə çevirib.

***Əli ƏLİYEV, “Xalq qəzeti”***

# Daşkənddə TÜRKSOY təntənəsi

**Daşkənddə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının 30 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində Özbəkistan Beynəlxalq Məclislər Sarayında TÜRKSOY-a üzv dövlətlərin incəsənət kollektivlərinin iştirakı ilə təntənəli konsert olub.**



Tədbirdə Türk Dövlətləri Təşkilatı, Türk Dövlətləri Parlament Assambleyası, TÜRKSOY-un rəhbərləri, təşkilata üzv dövlətlərin mədəniyyət nazirləri, Özbəkistanda olan xarici ölkələrin səfirləri, diplomatlar, ölkənin elm, mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycanın mədəniyyət naziri Adil Kərimli də qonaqlar arasında olub.

Əvvəlcə, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin TÜRKSOY-un 30 illiyi münasibətilə tədbir iştirakçılarına ünvanladığı təbrik məktubu oxunub.

Daha sonra çıxış edən Özbəkistanın Mədəniyyət və turizm naziri Azadbek Nazarbekov ölkənin TÜRKSOY-dakı fəaliyyətindən söz açaraq Türk xalqlarının ortaq mədəni irsinin tədqiqi və təbliği sahəsində bu qurumun mühüm işlər gördüyünü qeyd edib.

Türk Dövlətləri Təşkilatının rəhbəri Kubanıçbay Ömüralıyev və TÜRKSOY-un baş katibi Sultan Rayev çıxışlarında ortaq Türk tarixi-mədəni irsinin qorunması və daha geniş miqyasda təbliği, üzv dövlətlər arasında əməkdaşlıq, birgə layihələrin həyata keçirilməsi kimi əhəmiyyətli məsələlərdən söz açıblar.

Sonra üzv dövlətlərin folklor kollektivləri və incəsənət xadimlərinin iştirakı ilə bədii proqram təqdim olunub.

***Qulu KƏNGƏRLİ***
**Daşkənd**

# Qərb bölgəsi xəbərləri

**Respublikamızın Qərb bölgəsində su resurslarından səmərəli istifadədən tutmuş, torpağın aqrotexniki qaydalara uyğun şəkildə əkilib becərilməsi, kənd adamlarına texnika, toxum, gübrə verilməsi, məhsulun bazarda satışının təşkilinə kimi bütün məsələlər kompleks şəkildə həyata keçirilir.**

İstər Kənd Təsərrüfatı Nazirliyi, istərsə də digər müvafiq təşkilatlar, yerli icra strukturları daim kənd sakinləri ilə əlaqə saxlayır, fermerlərin sahələrinə baş çəkir, öz təkliflərini, tövsiyələrini verir, problemlərin həllində onların yardımçısına çevrilirlər.

Bu xəbərlərə nəzər yetirsəniz görəcəksiniz ki, adıçəkilən bölgədə kənd təsərrüfatının elə bir sahəsi yoxdur ki, həmin sahəyə lazımi diqqət yetirilməsin. Məhz bunun nəticəsidir ki, bölgədə son illər taxılçılığa, meyvəçiliyə, baramaçılığa diqqət xeyli artırılıb.

İyunun əvvəllərindən başlanan biçin işləri intensiv aparılır. Məhsulun tez və itkisiz yığılması üçün rayonda bütün zəruri tədbirlər görülüb. Maşın-mexanizm, texnika sarıdan qarşıya çıxan ən cüzi çətinlik belə yerli icra strukturlarının köməyi ilə dərhal aradan qaldırılır.

## Göygölün meyvəsi



***Bəlkə də, çoxu bilmir ki, "Şirin Aqro" QSC ölkədə ekoloji cəhətdən təmiz, dadlı meyvələr ixrac edən 5 şirkətdən biridir. Göygölün Quşqara kəndində yerləşən müəssisənin istehsal gücü ildə 8 min tondur.***

Təxminən 260 hektar ərazini əhatə edən adıçəkilən şirkət tərəfindən salınmış intensiv meyvə bağında hazırda məhsul yığımı sürətlə davam edir. Burada 100 nəfər daimi, 300 nəfər mövsümi işlə təmin olunub ki, bu da rayonun sosial-iqtisadi inkişafına, yeni iş yerlərinin açılmasına və əhalinin məşğulluğunun təmin edilməsinə öz müsbət təsirini göstərir. Qısa müddətdə müxtəlif ölkələrə məhsul göndərib bazarda özünü etibarlı təzə meyvə təchizatçısı kimi tanıdan və təsdiqləyən müəssisə əsasən ispan tezyetişən sortlardan istifadə edir.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Elməddin Əhmədov deyir ki, bu cəmiyyətin kollektivi yüksək məhsuldarlığı özünün peşəkarlığına və işə elmi yanaşmasına görə əldə edir. Sanki xarici ölkələrə məhsul göndərdikcə onların məsuliyyəti daha da artır.

## Şəmkirin taxılı



***"Taxıl bu il bol olacaq!" Rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev kiminlə görüşüb söhbət etdisə, problemləri ilə maraqlandısa, bu sözləri eşitdi.***

Aran ərazilərində taxıl biçininin gedişi ilə yerində tanış olan rayon rəhbərinə məlumat verildi ki, qısa müddət ərzində biçinə başlanılmasına baxmayaraq, ötən illə müqayisədə bu il daha yüksək məhsuldarlıq əldə olunur.

Qeyd edək ki, Şəmkir rayonunda cari ilin məhsulu üçün 15 min 693 hektar ərazidə taxıl əkilib və bunun 9 min 890 hektarı buğda, 5 min 678 hektarı isə arpadır.

Eyni zamanda, 1395 hektar sahədə şəkər çuğunduru və qarğıdalı əkilib. Rayonda cəmi əkilmiş taxıl sahələrinin 6 min 654 hektarı dəmyə, 9 min 39 hektarı suvarılan sahələrdir.

## Tovuzun baraması



***"Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Prezident İlham Əliyevin sərəncamından irəli gələn məsələlərin icrası Tovuzda uğurla həyata keçirilir.***

Bu il rayonda baramaçılıq ilə məşğul olan 55 kümçüyə ümumilikdə 170 qutu tut ipəkqurdu paylanılıb, 6 min 800 kiloqram yaş baramanın tədarük olunması planlaşdırılıb.

Bir neçə gün əvvəl başlanan yaş baramanın təhvil verilməsi prosesində RİH-nin başçısı da iştirak edib. Kümçülərdən indiyə kimi götürülən məhsulun həcmi artıq 6 min kiloqrama yaxınlaşır. Məhsulun keyfiyyəti də yüksəkdir. Son illər bu işlə həvəslə məşğul olan kümçülər deyiblər ki, həm ipəkqurdunun paylanılması, həm də istehsal və təhvil proseslərində yaradılan şəraitdən çox razıdırlar. Göstərilən dövlət qayğısına görə, ölkə Prezidentinə minnətdarlıqlarını bildiriblər və nəzərdə tutulan məhsulun hamısının tadarük olunacağına söz veriblər.

## Ağstafanın balığı



***Bu günlərdə Ağstafada su bioresurslarının artırılması və qorunması məqsədi ilə Kür çayına körpə balıqlar buraxılıb.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Qarayazı Dövlət Təbiət Qoruğunun Poylu qəsəbəsi ərazisində su bioresurslarının artırılması və qorunması məqsədi ilə Kür çayına körpə balıqların buraxılması mərasimi təşkil olunub.

Tədbirdə balıqartırma zavodlarında yetişdirilən müxtəlif növ balıq körpələrinin təbii mühitə buraxılması, eləcə də daxili su hövzələrində çirkləndirilmənin qarşısının alınması, ölkəmizin su hövzələrindəki balıq növlərinin təbii populyasiyaları insan fəaliyyətinin mənfi təsirindən qorunması kimi mühüm tədbirlərin icrasından geniş bəhs olunub. Vətəndaşların balıq ehtiyatlarının artımının qarşısını alan hərəkətlərdən qəti şəkildə imtina etməyə çağırılıb.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***

# Qurbanlıq kəsimlərə nəzarət ediləcək

**İyunun 28 və 29-da Qurban bayramının uyğun norma və qaydalar çərçivəsində təşkilinə dəstək verən nəzarət tədbirlərinin təmin edilməsi məqsədilə Qida Təhlükəsizliyi Agentliyi (AQTA) bayram günlərində müvafiq qurumlarla birgə gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.**

AQTA-dan verilən məlumata əsasən, bayram günlərində ölkə üzrə 138 ünvanda qurbanlıq heyvanların satışı və kəsimi xidmətləri təşkil olunacaq. Həmin satış məntəqələrində baytarlıq nəzarətindən keçmiş və sanitar-gigiyenik tələblər gözlənilməklə kəsilmiş qurbanlıq heyvanlar əhaliyə təqdim olunacaq. Bununla yanaşı, regionlarda AQTA ilə razılaşdırılmaqla səyyar heyvan kəsimi çadırları quraşdırılaraq qurbanlıq heyvanların baytarlıq nəzarəti altında kəsimi və satışı həyata keçiriləcək.



Bayram günlərində fəaliyyət göstərəcək qurbanlıq heyvanların satışı və kəsimi yerlərindən 80-də həm kəsim, həm satış, 46-da qurbanlıq heyvanların satışı, 12-də isə yalnız heyvan kəsimi xidmətləri vətəndaşlara təklif olunacaq.

***"Xalq qəzeti"***

# Muğana su gəlir...



**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi bölgələrdə qəsəbə və kənd əhalisinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə layihələrin icrasını davam etdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq Hacıqabul rayonunun Muğan qəsəbəsinin içməli su təchizatı yaxşılaşdırılır.**

Muğan qəsəbəsinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə icra olunan layihənin birinci mərhələsi üzrə işlər yekunlaşmaq üzrədir. Layihə çərçivəsində qəsəbədə yeni mərkəzləşdirilmiş su təchizatı şəbəkəsi yaradılır. Xatırladaq ki, 1970-ci illərin sonlarında Kür–Bakı magistral kəmərindən Muğan qəsəbəsinə içməli su verilib. Həmin vaxt qəsəbənin bir hissəsində su şəbəkəsi yaradılıb. Lakin ötən müddətdə qəsəbənin ərazisi genişlənərək əhalinin sayı 3 dəfəyədək artıb. Qəsəbənin paylayıcı şəbəkə ilə əhatə olunmayan ərazilərində əhalinin bir hissəsi tikinti normalarına uyğun olmayaraq çəkilmiş fərdi xətlərdən istifadə edib, bəzi sakinlər isə içməli suyu maşınlarla alıb.

Mövcud içməli su şəbəkəsi isə istismar müddətini başa vurduğundan qəsəbənin su təchizatında çətinliklər yaranırdı. İstismar müddəti başa çatmış şəbəkə və əhali tərəfindən primitiv çəkilmiş su xətləri həm də ciddi su itkilərinə səbəb olurdu. Mərkəzləşdirilmiş şəbəkənin yaradılması içməli su təchizatındakı problemlərin aradan qaldırılması ilə yanaşı, yeni abonentlərin də su təchizatı sisteminə qoşulmasına imkan verib.

Qeyd edək ki, layihə çərçivəsində Kür–Bakı su kəmərindən Muğan qəsəbəsinə əlavə çıxış verilib və 2 kilometr uzunluğunda magistral su xətti çəkilib. Eyni zamanda, qəsəbə ərazisində 10 kilometr uzunluğunda yeni mərkəzləşdirilmiş içməli su şəbəkəsi yaradılıb, abonentlərə ev birləşməsi verilərək sayğaclar quraşdırılıb. 6 minədək sakinin yaşadığı Muğan qəsəbəsinin digər ərazilərində isə yeni içməli su şəbəkəsinin yaradılması layihənin növbəti mərhələlərində həyata keçiriləcək. Bununla da, qəsəbə sakinləri dayanıqlı və keyfiyyətli içməli su ilə təmin olunacaq, dəqiq uçot qurulmaqla su itkiləri minimuma endiriləcək və israfçılığın qarşısı alınacaq.

***"Xalq qəzeti"***

# Ağcabədidə daha bir rahat yol...



**Hazırda Qarabağ və Şərqi Zəngəzurda beynəlxalq standartlara cavab verən yolların salınması prioritet məsələ kimi daim diqqətdə saxlanılır. Reallaşdırılan belə layihələrdən biri də uzunluğu 41 kilometr olan Avşar–Salmanbəyli–Aşağı Avşar–Xocavənd avtomobil yoludur.**

Magistralın çəkilişi ilə tanışlıq zamanı Xocavənd kənd icra nümayəndəsi Elçin Balakişiyev bildirdi ki, 14 min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsinin sakinləri uzun illər yolsuzluqdan əziyyət çəkirdilər. Belə ki, bu yol əsasən çınqıl örtüklü və torpaq əsaslı olduğundan yağışın, suvarma və qrunt sularının təsirindən yararsız vəziyyətə düşmüş, yolda çala-çuxurlar əmələ gəlmiş, avtonəqliyyat vasitələrinin hərəkətində problemlər yaranmışdı. Bu səbəbdən də 5-10 dəqiqəyə gediləsi yola 20-30 dəqiqə vaxt sərf olunurdu. Təbii ki, belə bir problem üzündən maşınlar da tez-tez sıradan çıxır, yanacaq sərfi narahatlıq doğururdu. Ağır xəstələrin xəstəxanaya vaxtında çatdırılması isə müşkülə çevrilmişdi. Lakin II Qarabağ müharibəsindən sonra Avşar–Salmanbəyli–Aşağı Avşar–Xocavənd avtomobil yolunun istifadəyə verilməsi ilə bu çətinlik aradan qaldırıldı.

E.Balakişiyevin sözlərinə görə, yol problemi fermerlərin fəaliyətinə də mənfi təsir göstərirdi: "Bizim yaşayış məntəqələri əsasən kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşıb. Ancaq yol çətinliyi üzündən fermerlər, kənd sakinləri yığılan məhsulu vaxtında sata bilmirdilər, nəticədə məhsulun bir hissəsi xarab olurdu".

Yolun bərpası sahibkarlıq fəaliyyətinə geniş imkanlar açıb. Hazırda yolboyu ticarət və iaşə obyektləri fəaliyyət göstərir. Fermerlər yetişdirdikləri kənd təsərrüfatı məhsullarını rayon mərkəzinə və qonşu Ucar, Zərdab və Ağcabədi bazarlarına rahatlıqla apara bilirlər. Bu isə həmin yaşayış sahələrinin sosial-iqtisadi inkişafına böyük töhfə verir və ölkənin kənd təsərrüfatı potensialını gücləndirir.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# 61 rayonda biçin gedir



**Respublikada taxıl biçini prosesi sürətlə davam edir. Artıq payızlıq əkin sahələrinin 26,5 faizində biçin başa çatıb. İndiyədək sahələrdən 641 min 423 ton arpa, 213 min 460 ton buğda yığılıb. Ölkə üzrə payızlıq arpa sahələrinin 52,8 faizində, buğda sahələrinin isə 10 faizində biçin başa çatıb. Hazırda orta məhsuldarlıq arpa üzrə 29,8 sentner, buğda üzrə isə 33,3 sentner təşkil edir.**

Kənd Təsərrüfatı Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin məlumatına əsasən, payızlıq əkinlər mövsümündə Kürdəmir rayonunda 42 min 842 hektar sahədə taxıl əkilib. Əkin sahələrinin 10 min 515 hektar buğda, 32 min 327 hektarı isə arpa sahələridir. İndiyədək rayon üzrə 24 min 847 hektar sahədə biçin aparılıb, sahələrdən 77 min 750 ton məhsul yığılıb.

Hazırda rayonda taxıl üzrə orta məhsuldarlıq 31,3 sent/ha təşkil edir. Kürdəmirdə arpa sahələrinin 68 faizində, buğda sahələrinin isə 30 faizində biçin yekunlaşıb. Biçinin vaxtında və itkisiz başa çatdırılması üçün "Aqroservis" ASC tərəfindən rayona digər bölgələrdən əlavə kombaynlar dislokasiya edilib.

Rayonda biçin prosesinə cəlb olunan 71 kombayndan 23-ü "Aqroservis" ASC-nin yerli rayon bölməsinin balansında olan kombaynlardır, "Aqroservis" tərəfindən digər rayon bölmələrindən Kürdəmirə 20 əlavə kombayn dislokasiya edilib. Biçinə, həmçinin fiziki və hüquqi şəxslərə məxsus 28 özəl kombayn da cəlb olunub. Rayonda biçin prosesinin qısa müddətdə tam başa çatacağı gözlənilir.

Hazırda respublikanın 61 rayonunda biçin gedir. Biçin prosesinə 1446 kombayn cəlb olunub. Ölkə üzrə 83 min 995 hektar "Aqroservis" ASC-nin kombaynları, qalan hissəsi isə özəl kombaynlar vasitəsilə biçilib. "Aqroservis"in kombaynları dislokasiya planı üzrə ilkin mərhələdə 5 hektaradək olan kiçik sahələrdə biçin aparır. Sosial biçin prosesi növbəlilik prinsipi əsasında həyata keçirilir.

Bu il ölkə ərazisində 1 milyon 58 min 398,9 hektar taxıl sahəsi əkilib ki, bunun 658 min 383,7 hektarı buğda, 400 min 15,2 hektarı isə arpa sahəsidir.

***"Xalq qəzeti"***

# Aqrar qurğu və maşınlar da ƏDV-dən azad edilib



**Nazirlər Kabinetinin 2 dekabr 2022-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Əlavə dəyər vergisindən azad olunan bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların, habelə onların ehtiyat hissələrinin Siyahısı"nda dəyişiklik edilib.**

Baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən, kənd təsərrüfatı və yaxud bağçılıq üçün daşınan qurğular, kənd təsərrüfatında istifadə üçün nəzərdə tutulan pnevmatik qaldırıcılar və konveyerlər, taxılyığan kombaynlar və digər qurğu və maşınlar ƏDV-dən azad edilib.

***"Xalq qəzeti"***

# Azad edilmiş ərazilərdə işləyənlərə dövlət dəstəyi

**Nazirlər Kabinetinin qəbul etdiyi "Əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində çalışan işçilərin əmək haqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların (əmsalların) məbləğinin minimum miqdarının müəyyən edilməsi haqqında" qərarda dəyişiklik edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, dəyişiklik işğaldan azad edilmiş ərazilərimizdə məskunlaşıb işləyənlər üçün həyata keçirilən stimullaşdırıcı tədbirlərdir.**

Qərarla işğaldan azad edilmiş ərazilərimizdə işləyən mütəxəssislərin vəzifə maaşlarına tətbiq olunan artımın minimum məbləği 20 faiz müəyyənləşib. Qeyd edilir ki, artım əmsalları özəl sektorda fəaliyyət göstərən işəgötürənlər tərəfindən könüllü şəkildə kollektiv müqavilədə göstərilməlidir. Kollektiv müqavilə bağlanmadığı hallarda həmin artımların əmək müqaviləsində göstərilməklə tətbiqi nəzərdə tutulur.

Xatırladaq ki, dövlət başçısının ötən ilin dekabr ayında imzaladığı qanunvericilik aktları ilə Əmək Məcəlləsinə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssis" anlayışı əlavə olunub. Bu anlayışa peşə, orta ixtisas və ali təhsil müəssisəsini bitirmiş və son 5 il ərzində azı 2 il əmək stajı olan və ölkəmizin işğaldan azad edilmiş ərazilərində əmək müqaviləsi əsasında çalışan işçilər aid edilib. Stimullaşdırıcı tədbir kimi həmin mütəxəssislərə birdəfəlik müavinət ödənilir, aylıq vəzifə maaşlarına əlavələr hesablanır və hər il 5 gün əlavə məzuniyyət verilir.

Eyni zamanda, qərarda nəzərdə tutulub ki, işəgötürənlər tərəfindən işçilər üçün ödənilən sosial sığorta haqları subsidiya formasında geri qaytarılsın və həmin ərazilərdə işləməyə cəlb olunan əcnəbi mütəxəssislərə stimullaşdırıcı dəstək kimi əmək miqrasiyası kvotası tətbiq edilməsin.

*Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"*

# Müharibə əlilləri üçün xüsusi idman protezləri



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı xüsusi idman protezləri ilə də təmin olunmasını planlaşdırır.**

Bununla əlaqədar Danimarkanın "Levitate" şirkətinin Türkiyə və Azərbaycan üzrə təmsilçisi olan "Bionic Center Prosthetics Orthotics" tərəfindən bir qrup müharibə ilə əlaqədar əlilliyi olan şəxsin iştirakı ilə xüsusi idman protezlərinin sınağı keçirilib. Sınaq işləri müsbət nəticələnib və müharibə veteranları bu protezlərin idmanla məşğul olmaq üçün etibarlı və rahat, uyğun olduğunu bildiriblər.

Bundan əvvəlki mərhələdə 2020-ci ilin dekabr ayından bəri nazirlik tərəfindən müharibə ilə əlaqədar əlilliyi olan 420 şəxs 438 ədəd yüksək texnologiyalı müasir protezlə təmin edilib. Elektron diz oynaqları ilə təhciz olunan yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir.

Xüsusi idman protezləri isə yüksək texnologiyalı protezlərə quraşdırılmaqla, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin qaçış və digər bir çox idman oyunlarında daha sərbəst və aktiv şəkildə, rahat hərəkətlər etməsinə şərait yaradacaq.

Gələn ildən aktiv həyat sürən amputantların mərhələli şəkildə idman protezləri ilə təminatı işlərinə başlanılacaq.

*Z.HÜSEYNOVA, "Xalq qəzeti"*


# "Ekol Mühəndislik Xidmətləri" QSC-nin 2022-ci il dekabrın 31-nə

## Beynəlxalq maliyyə hesabatı standartlarına uygun konsolidasiya edilmiş maliyyə hesabatları və müstəqil auditorun hesabatı

manatla

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **Uzunmüddətli aktivlər** | | |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlər | 18,597 | 19,511 |
| İstifadə hüquqlu aktivlər | 4,768 | 7,629 |
| Birgə müəssisədəki investisiya | 733 | 1,612 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 364 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | **24,462** | **28,752** |
| **Qısamüddətli aktivlər** | | |
| Mal-material ehtiyatları | 4,186 | 3,766 |
| Ticarət və digər debitor borclar | 14,404 | 11,566 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 181 | 2,967 |
| Cari mənfəət vergisi üzrə avans ödənişləri | 448 | - |
| **Cəmi qısamüddətli aktivlər** | **19,219** | **18,299** |
| **CƏMİ AKTİVLƏR** | **43,681** | **47,051** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 4,072 | 4,072 |
| Bölüşdürülməmiş mənfəət | 17,439 | 15,583 |
| **CƏMİ KAPİTAL** | **21,511** | **19,655** |
| **ÖHDƏLİKLƏR** | | |
| **Uzunmüddətli öhdəliklər** | | |
| Borc öhdəliyi | 1,167 | 3,267 |
| İcarə öhdəliyi | 6,258 | 7,208 |
| Təxirə salınmış vergi öhdəliyi | - | 24 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | 7,425 | **10,499** |
| **Qısamüddətli öhdəliklər** | | |
| Borc öhdəliyi | 6,264 | 9,099 |
| Ticarət və digər kreditor borclar | 4,044 | 2,550 |
| Cari mənfəət vergisi öhdəliyi | 639 | 1,625 |
| Digər vergi öhdəlikləri | 3,798 | 2,060 |
| İcarə öhdəliyi | - | 1,563 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **14,745** | **16,897** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **22,170** | **27,396** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **43,681** | **47,051** |

| | | |
|---|---|---|
| **Gəlirlər** | **40,905** | **33,248** |
| **Xərclər və məsrəflər** | | |
| Əmək haqqı və ödənişlər | (21,803) | (14,690) |
| Köhnəlmə və amortizasiya xərcləri | (3,128) | (2,901) |
| İstifadə olunmuş xammal və xərc materialları | (2,847) | (3,093) |
| Subpodratçılar tərəfindən göstərilmiş xidmətlərin dəyəri | (1,628) | (94) |
| Kommunal xərclər | (685) | (508) |
| Birgə müəssisədəki investisiyanın dəyərsizləşməsi | (279) | - |
| İcarə xərcləri | (3) | (17) |
| Sair xərclər | (6,299) | (2,385) |
| **Cəmi xərclər və məsrəflər** | **(36,672)** | **(23,688)** |
| **Əməliyyat mənfəəti** | **4,233** | **9,560** |
| Faiz xərcləri | (1,902) | (2,444) |
| Sair gəlirlər | 426 | 729 |
| Birgə müəssisənin maliyyə nəticələrindəki pay | 291 | 890 |
| **Vergidən əvvəlki mənfəət** | **3,048** | **8,735** |
| Mənfəət vergisi xərci | (1,192) | (1,997) |
| **İL ÜZRƏ MƏNFƏƏT** | **1,856** | **6,738** |
| **İL ÜZRƏ CƏMi MƏCMU GƏLİR** | **1,856** | **6,738** |

| | **Nizamnamə kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|
| **2021-ci il yanvarın 1-nə qalıq** | **4,072** | **9,456** | **13,528** |
| İl üzrə cəmi məcmu gəlir | - | 6,738 | 6,738 |
| Elan edilmiş dividendlər | - | (611) | (611) |
| **2021-ci il dekabrın 31-nə qalıq** | **4,072** | **15,583** | **19,655** |
| İl üzrə cəmi məcmu gəlir | - | 1,856 | 1,856 |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **4,072** | **17,439** | **21,511** |

| | | |
|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Mənfəət vergisindən əvvəlki mənfəət | 3,048 | 8,735 |
| *Düzəlişlər:* | | |
| Köhnəlmə və amortizasiya | 3,128 | 2,902 |
| Birgə müəssisənin maliyyə nəticələrindəki pay | (291) | (890) |
| Ticarət və digər debitor borclar üzrə dəyərsizləşmə zərəri üçün ehtiyatın yaradılması/(bərpası) | 1,596 | (579) |
| Faiz xərcləri | 1,902 | 2,444 |
| Birgə müəssisədəki investisiyanın dəyərsizləşməsi | 279 | - |
| Sair qeyri-nağd əməliyyatlar | (484) | (460) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **9,178** | **12,152** |
| Ticarət və digər debitor borclarda artım | (4,434) | (410) |
| Mal-material ehtiyatlarında artım | (420) | (397) |
| Ticarət və digər kreditor borclarda artım/(azalma) | 1,494 | (1,974) |
| Vergi öhdəliklərində artım | 1,828 | 114 |
| **Dövriyyə kapitalında dəyişikliklər** | **(1,532)** | **9,485** |
| Ödənilmiş mənfəət vergisi | (3,013) | (628) |
| Borc öhdəlikləri üzrə ödənilmiş faizlər | (603) | (812) |
| İcarə öhdəliyi üzrə ödənilmiş faizlər | (992) | (894) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **3,038** | **7,151** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Əsas vəsaitlərin alınması | (482) | (744) |
| Əsas vəsaitlərin satılmasından daxilolmalar | - | 227 |
| Alınmış dividendlər | 801 | 1,074 |
| Maliyyə icarəsinə əsasən icarəyə verilmiş aktivlərin satın alınması | - | (26) |
| **İnvestisiya fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **319** | **532** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Qrupun səhmdarlarına ödənilmiş dividendlər | - | (696) |
| Borcların ödənilməsi | (4,950) | (5,281) |
| İcarə öhdəliyinin ödənilməsi | (1,193) | (1,058) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri vəsaitləri** | **(6,143)** | **(7,035)** |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 2,967 | 2,319 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **181** | **2,967** |



# "Aran Aqro" ASC səhmdarlarının nəzərinə!

27 iyul 2023-cü il saat 12.00-da "Aran Aqro " ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətim 2022-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Cəmiyyətin idarəetmə orqanlarının hesabatı.
3. Digər məsələlər.

Telefon-055- 686-36-54.

Ünvan-Ucar rayonu, Qarabörk kəndi.



# "Diamed Development Group" MMC-nin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

*manatla*

| | 2022-ci il | 2021-ci ildə (audit olunmamışdır) |
|---|---|---|
| Aktivlər<br>Uzunmüddətli aktivlər<br>Əsas vəsaitlər | 11,823,318 | 4,271,968 |
| Cəmi uzunmüddətli aktivlər | 11,823,318 | 4,271,968 |
| Cari aktivlər | | |
| Mal-materiallar | 131,918 | - |
| Pul vəsaitləri və onların ekvivalenti | 610,724 | 912,829 |
| Digər aktivlər | 774,045 | 4,165,086 |
| Cəmi cari aktivlər | 1,516,687 | 5,077,915 |
| Cəmi aktivlər | 13,340,005 | 9,349,883 |
| Kapital | | |
| Nizamnamə kapitalı | 7,666,000 | 3,516,000 |
| Yığılmış zərər | (1,033,337) | (218,083) |
| Cəmi kapital | 6,632,663 | 3,297,917 |
| Öhdəliklər<br>Uzunmüddətli öhdəliklər<br>Bank borcları | 6,012,508 | 6,012,508 |
| Cəmi uzunmüddətli öhdəliklər | 6,012,508 | 6,012,508 |
| Cari öhdəliklər | | |
| Kreditor borcları | 674,608 | 9 |
| Əlaqəli tərəflərə olan öhdəliklər | 100 | 31,100 |
| Digər öhdəliklər | 20,126 | 8,349 |
| Cəmi cari öhdəliklər | 694,834 | 39,458 |
| Cəmi öhdəliklər | 6,707,342 | 6,051,966 |
| Cəmi kapital və öhdəliklər | 13,340,005 | 9,349,883 |

**MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**

| | | |
|---|---|---|
| İnzibati xərclər | (288,041) | (128,854) |
| **Əməliyyat gəliri** | **(288,041)** | **(128,854)** |
| Məzənnə fərqindən yaranan xalis zərər | (257,213) | - |
| Maliyyə xərcləri | (270,000) | (89,229) |
| **Mənfəət vergisindən əvvəlki zərər** | **(815,254)** | **(218,083)** |
| Mənfəət vergisi xərci | - | - |
| **İl üzrə zərər** | **(815,254)** | **(218,083)** |
| Digər məcmu gəlir | - | - |
| İl üzrə cəmi məcmu zərər | **(815,254)** | **(218,083)** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

| | Nizamnamə kapitalı | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|
| 2021-ci il yanvarın 1-nə qalıq (audit olunmamış) | | | |
| Kapital artımı | 3,516,000 | - | 3,516,000 |
| il üzrə cəmi məcmu zərər | - | (218,083) | (218,083) |
| 2021-ci il dekabrın 31-ə qalıq (audit olunmamış) | 3,516,000 | (218,083) | 3,297,917 |
| Kapital artımı | 4,150,000 | | 4,150,000 |
| il üzrə cəmi məcmu zərər | - | (815,254) | (815,254) |
| 2022-ci il dekabrın 31-nə qalıq | 7,666,000 | (1,033,337) | 6,632,663 |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| | 2021-ci ildə (audit olunmamışdır) | |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəlki zərər** | **(815,254)** | **(218,083)** |
| Düzəlişlər: | | |
| Maliyyə xərcləri | 270,000 | 89,229 |
| Məzənnə fərqindən yaranan xalis zərər | 257,213 | - |
| **Əməliyyat fəaliyyətindəki dəyişikliklər** | | |
| Mal materiallar | (131,918) | - |
| Digər aktivlər | 3,391,041 | (4,165,086) |
| Kreditor borclar | 674,599 | 9 |
| Digər öhdəliklər | 11,777 | 8,349 |
| Ödənilmiş faizlər | (270,000) | (76,721) |
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | **3,387,458** | **(4,362,303)** |
| **İnvestisiya fəaliyyətindəki dəyişikliklər** | | |
| Əsas vəsaitlərin alınması | (7,551,350) | (4,271,968) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **(7,551,350)** | **(4,271,968)** |
| **Maliyyə fəaliyyətindəki dəyişikliklər** | | |
| Alınmış bank borcları | - | 6,000,000 |
| Əlaqə tərəflərə olan öhdəliklər | (31,000) | 31,100 |
| Kapitalın artımı | 4,150,000 | 3,516,000 |
| **Maliyyə fəaliyyəti üzrə (istifadə edilən)/ daxil olan xalis pul vəsaitləri** | **4,119,000** | **9,547,100** |
| **Pul və pul vəsaitlərinə təsir** | **(257,213)** | |
| **Pul və pul vəsaitlərində xalis dəyişilik** | **(302,105)** | **912,829** |
| **Pul və pul vəsaitləri, ilin əvvəlinə** | **912,829** | **-** |
| **Pul və pul vəsaitləri, ilin sonuna** | **610,724** | **912,829** |

**MÜSTƏQİL AUDİTORLARIN HESABATI**
**"Diamed Development" MMC-nin təsisçillərinə**

**Rəy**

Biz "Diamed Development" MMC-nin (şirkət) 2022-ci il dekabrın 31-nə təqdim edilən maliyyə vəziyyəti haqqında, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də, əsas mühasibat prinsiplərinin icmalı da daxil olmaqla maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim fikrimizcə, maliyyə hesabatları 2022-ci il dekabrın 31-nə şirkətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq düzgün və ədalətli şəkildə əks etdirir.

**Rəy üçün əsaslar**

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Bu standartlar çərçivəsində nəzərdə tutulan öhdəliklərimiz hesabatımızın Maliyyə Hesabatları üzrə Auditorların Öhdəlikləri bölməsində əks olunmuşdur. Biz Peşəkar Mühasiblərin Etika Məcəlləsi üzrə Beynəlxalq Etika Standartları Şurasının (İESBA) prinsiplərinə uyğun olaraq şirkətdən ayrıyıq və digər etik öhdəliklərimizi bu tələblər və İESBA məcəlləsi əsasında həyata keçirmişik. Biz rəyimizin əsasını təşkil edən yetərli və müvafiq audit dəlilləri əldə etmişik.

**Əhəmiyyətli nüanslar**

Bizə müqayisəli məlumatlarla bağlı hesabat vermək üçün müraciət edilməmişdir. Bu səbəbdən hesabatda göstərilən müqayisəli məlumatlar audit olunmamışdır. Bu məsələ ilə bağlı rəyimiz dəyişmir.

**Rəhbərliyin və maliyyə hesabatlarının idarə edilməsi üzrə məsul tərəflərin öhdəlikləri**

Rəhbərlik bu maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, hesabatların saxtakarlıq və ya səhvlərdən irəli gələn əhəmiyyətli təhriflər olmadan tərtib edilməsi üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik şirkətin fəaliyyətinin fasiləsizliyi prinsipi əsasında işini davam etdirmək potensialını qiymətləndirmək, müvafiq olduqda daimilik prinsipi ilə bağlı məsələləri açıqlamaq, rəhbərlik şirkəti ləğv etmək və ya fəaliyyətini dayandırmaq istəyənədək, yaxud bunu etmək üçün real seçimi olmayanadək hesabatlılıqda fəaliyyətin fasiləsizliyi prinsipini istifadə etmək üzrə məsuliyyət daşıyır. İdarəçilik üzrə məsul tərəflər şirkətin maliyyə hesabatvermə prosesinə nəzarət etmə öhdəliyi daşıyır.

**Maliyyə hesabatlarının auditi üzrə auditorların öhdəlikləri**

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında saxtakarlıq və ya səhvlərdən dolayı əhəmiyyətli təhriflərin mövcud olmadığına təminat vermək və rəyimizi əks etdirən auditor hesabatı təqdim etməkdir. Təminat çox önəmli olsa da, Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit yoxlamasının hər zaman mövcud olan təhrifləri aşkarlayacağına zəmanət vermir. Təhriflər, saxtakarlıq və ya səhvlərdən irəli gələ və bu maliyyə hesabatları əsasında verilmiş iqtisadi qərarlara ciddi təsir göstərə bilər.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır , icra edir və rəyimiz üçün əsas təşkil edəcək kafi və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamamaq riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir. Saxtakarlıq isə əlbir olma, saxtalaşdırmaq, məqsədli buraxmaq, təhrif və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqəli olur.
- Mövcud şərtlərdə müvafiq olacaq, lakin şirkətin daxili nəzarətinin səmərəliliyi ilə bağlı rəy bildirmək məqsədi daşımayan audit prosedurları hazırlamaq üçün auditə müvafiq daxili nəzarət haqqında anlayış əldə edirik.
- İstifadə olunan uçot siyasətlərinin, uçot smetalarının və rəhbərlik tərəfindən açıqlanan əlaqədar məlumatların müvafiqliyini təhlil edirik.
- Rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin müvafiqliyinə və şirkətin fəaliyyətinin fasiləsizliyi prinsipini davam etdirmək imkanına aid ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub -olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Bizim yekun rəyimizdə ciddi qeyri-müəyyənlik mövcuddur deyilərsə, auditor hesabatımızda maliyyə hesabatlarında əlaqədar məlumatlara diqqət verməyimiz, yaxud da bu cür məlumatlar müvafiq olmazsa, rəyimizi dəyişdirməyimiz tələb olunur. Bizim yekun rəylərimiz auditor hesabatımızın hazırlanma tarixinədək əldə edilmiş audit dəlillərinə əsaslanır. Bununla belə, gələcək hadisə və şərtlər şirkətin işində fəaliyyətin fasiləsizliyi prinsipini poza bilər.
- Maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin hesabatların obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqd və hadisələri əks etdirib etdirmədiyini təhlil edirik.

Biz auditin və mühüm audit tapıntılarının, o cümlədən audit yoxlaması zamanı daxili nəzarətdə aşkarladığımız mühüm çatışmazlıqların nəzərdə tutulan əhatə dairəsi və zamanlaması ilə bağlı idarəetmə üzrə məsul tərəflərlə əlaqədə oluruq.



# "NEMAN İKF" MMC-nin 2022-ci il dekabrın 31-nə

## *Konsolidə olunmuş (birləşdirilmiş) maliyyə vəziyyəti haqqında hesabatı*

manatla

| Bölmələrin , maddələrin adları | Əvvəlki dövr üzrə (2021-ci il) | | Hesabat dövrü üzrə (2022-ci il) | |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| **Uzunmüddətli aktivlər** | | | | |
| Qeyri-maddi aktivlər | 467 272.00 | | 435 138.08 | |
| Əsas vəsaitlərin dəyəri | 8 853 898.47 | | 8 738 448.14 | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **9 321 170.47** | | **9 173 586.22** |
| **Qısamüddətli aktivlər** | | | | |
| Ehtiyatlar | 9 302 666.58 | | 11 401 719.23 | |
| Qısamüddətli debitor borcları | 4 021 969.78 | | 3 054 402.29 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 2 837 778.97 | | 906 486.41 | |
| Sair qısamüddətli maliyyə aktivləri | 4 394 119.00 | | 5 824 183.02 | |
| Gələcək dövrün xərcləri | - | | - | |
| Sair qısamüddətli aktivlər | 190 609.35 | | 2 853 356.65 | |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **20 747 143.68** | | **24 040 147.6** |
| **CƏMİ AKTİVLƏR** | | **30 068 314.15** | | **33 213 733.82** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| **Kapital** | | | | |
| Ödənilmiş nominal(nizamnamə) kapitalı | 10 894 269.00 | | 11 629 269.00 | |
| Xalis mənfəət | | | | |
| Kapital ehtiyatları (bölüşdürülməmiş mənfəət) | - | | - | |
| **CƏMİ KAPİTAL** | | **10 894 269.00** | | **11 629 269.00** |
| **Uzunmüddətli öhdəliklər** | | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | - | | - | |
| Uzunmüddətli kreditor borcları | - | | 49 343.89 | |
| Sair uzunmüddətli öhdəliklər | - | | - | |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **-** | | **-** |
| **Qısamüddətli öhdəliklər** | | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | - | | - | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | - | | - | |
| Qısamüddətli kreditor borcları(avans) | 6 326 105.74 | | 4 512 815.06 | |
| Sair qısamüddətli öhdəliklər | 12 847 939.41 | | 17 022 305.87 | |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **19 174 045.15** | | **21 535 120.93** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **19 174 045.15** | | **21 584 464.82** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **30 068 314.15** | | **33 213 733.82** |

**Məcmu gəlirlər və zərərlər haqqında hesabat**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 17 016 130.58 | 21 553 134.39 |
| Sair əməliyyat gəlirləri | 1 073 956.74 | 1 158 128.70 |
| Əməliyyat xərcləri(cəmi xərclər) | (16 075 626.47) | (20 523 762.03) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **2 103 864.06** | **2 239 867.51** |
| Fövqəladə gəlirlər | 2 773.87 | 53 667.70 |
| Fövqəladə xərclər | - | (46 183.36) |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | **2 106 637.93** | **2 247 351.85** |
| Mənfəət vergisi | (386 264.21) | (366 147.41) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **1 720 373.72** | **1 881 204.44** |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | Nizamnamə kapitalı | Cəmi kapital |
|---|---|---|
| 2020-ci il dekabrın 31-nə qalıq | 11 624 269.00 | 11 624 269.00 |
| 2021-ci il üzrə xalis mənfəət,zərər | 70 000.00 | 70 000.00 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | (800 000.00) | (800 000.00) |
| 2021-ci il dekabrın 31-nə qalıq | 10 894 269.00 | 10 894 269.00 |
| 2022-ci il üzrə xalis mənfəət,zərər | 735 000.00 | 735 000.00 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | - | - |
| 2022-ci il dekabrın 31-nə qalıq | 11 629 269.00 | 11 629 269.00 |

**Maliyyə hesabatlarının mötəbərliyi Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş lisenziyaya əsasən fəaliyyət göstərən auditor "İnternational Audit" tərəfindən təsdiqlənmişdir.**

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 132 (30248) 23 iyun 2023-cü il, cümə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## “Berlin-2023”də ikinci

**Almaniyanın Berlin şəhərində Ümumdünya Xüsusi Yay Olimpiya Oyunlarında komandamızın çıxışı davam edir.**



Üzgüçülük üzrə estafet yarışlarında idmançılarımız Aidə Rzayeva, Vüsalə Qasımova, Əli Məhəmməd və Ağasəlim Abdullayev 4 x 25 metr məsafədə gümüş medal qazanıblar.

Qeyd edək ki, komandamız buna qədər 1 qızıl, 11 bürünc medala sahib olub. Medalları bədii gimnastika və pauerliftinq üzrə idmançılarımız əldə ediblər.

## İstanbulda gümüş medal

**Yunan-Roma güləşi üzrə millimizin idmançısı Murad Əhmədiyev (97 kq) Türkiyənin İstanbul şəhərində keçirilən Yaşar Doğu, Vehbi Əmrə və Hamit Kaplanın xatirə turnirində medal qazanıb.**




İdmançımız ənənəvi yarışda finala qədər bütün rəqiblərini məğlub etsə də, həlledici mərhələdə uduzaraq gümüş medalla kifayətlənib.

## “Krakov-2023”: Avropa Oyunlarında ilk qızıl

**Polşada keçirilən III Avropa Oyunlarında dünən idmanın 11 növü üzrə yarışlar təşkil olunub.**



Yarışın ikinci günündə yeddi növ üzrə 21 dəst mükafatın sahibi müəyyənləşib. Azərbaycan yığması bu növlərdən dördündə təmsil olunub.

Təmsilçilərimizdən karateçimiz Tural Ağalarzadə (67 kq) Azərbaycan komandasına ilk medalı qazandırıb.

Finala qədər uğurla irəliləyən idmançımız həlledici görüşdə yunanıstanlı Dionisios Xenosu da məğlub edərək Oyunların qızıl medalına sahib olub.

İyulun 2-dək davam edəcək III Avropa Oyunlarında 48 ölkədən 7 minə yaxın idmançı mübarizə aparır. Azərbaycan Krakov-2023-də 13 növ üzrə 86 idmançı ilə təmsil olunur.

*Leyla SABİRQIZI,*
*“Xalq qəzeti”*

Texnologiya yenilikləri

## Süni zəka idman yarışlarını şərh edəcək

**Tarixdə ilk dəfə olaraq süni zəka idman yarışlarını şərh edəcək. Bu barədə “bbc.com” saytı məlumat verib.**

Aparıcı İT şirkəti “IBM”in hazırladığı süni intellekt “Wimbledon” tennis çempionatında matçın əsas anlarını şərh və təhlil edəcək. Süni zəka keçirilən yarışların maraqlı hissələrini seçərək turnirin saytında paylaşacaq. Həmçinin həmin videoları səsləndirəcək və sözləri altyazı şəklində ekranda da göstərəcək.




Şirkətin marketinq və kommunikasiyalar üzrə vitse-prezidenti Conatan Adaşek bu barədə deyib: “Hazırlanmış süni intellekt “Wimbledon– 2023” çempionatına yeni perspektiv gətirəcək. Bu texnologiya sayəsində böyük idman yarışlarını geniş auditoriyaya çatdırmaq mümkün olacaq.”

Qeyd edək ki, “Wimbledon” tennis çempionatı 2023-cü il iyulun 3-dən 16-dək keçiriləcək.

*Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”*



## Türkiyə İsveçdən konkret addımlar gözləyir

**Türkiyə parlamentinin spikeri Nüman Kurtulmuş “TRT” televiziyasi ilə çıxış edərək bəyan edib ki, İsveç Madrid memorandumuna sadiq qalmalı, terrorizmə və terrorçulara qarşı mübarizə öhdəliklərini yerinə yetirməlidir. İsveç anti-terror haqqında qanun qəbul edib. Biz bunu alqışlayırıq. Lakin hələ də Türkiyənin ədalətli tələbləri yerinə yetirilməyib. İsveçdən konkret addımlar atmağı gözləyirik.**

TASS-ın məlumatına görə, bundan əvvəl NATO-nun Baş katibi Yens Stoltenberq bildirmişdi ki, İsveç Alyansa qəbul olunmaq üçün üçtərəfli memorandumu yerinə yetirib. Türkiyə isə bunu təkzib edir.

*“Xalq qəzeti”*

# Mədəniyyət xəbərləri

***Azərbaycan Dövlət “Yuğ” Teatrı Gürcüstanın Kutaisi şəhərində təşkil olunan “Teatral İmereti” beynəlxalq teatr festivalında çıxış edib.***



Teatrdan bildirilib ki, hər il keçirilən festivala bu dəfə 20-dən çox ölkə qatılıb. Festival çərçivəsində “Yuğ” Teatrı V.Şekspirin “III Riçard” əsəri əsasında bolqarıstanlı rejissor Hristo Stoiçevin quruluşunda “Lənət” tamaşasını nümayiş etdirib. Bu səhnə təqdimatı beynəlxalq festivalın ən orijinal tamaşası seçilib və mükafat qazanıb.

Tamaşada rolları Əməkdar artist Qasım Nağı, aktyorlar Oqtay Mehdiyev, Natəvan Qeybani, Təranə Ocaqverdiyeva və Zümrüd Qasımova ifa ediblər.

***

***Nizami Kino Mərkəzində Azərbaycan memarlıq sənətinin iki görkəmli nümayəndəsi – Sadıq Dadaşov və Mikayıl Hüseynova həsr edilmiş “Yaradanlar” sənədli filmi nümayiş olunub. Film Mədəniyyət Nazirliyinin dəstəyi və Memarlar İttifaqının təşəbbüsü ilə çəkilib.***




2020-ci ildə “Salnaməfilm” studiyasında istehsal olunmuş filmin rejissoru Şamil Əliyev, ssenari müəllifi isə Natiq Rəsulzadədir.

Ekran əsərində Mikayıl Hüseynovla Sadıq Dadaşovun həyat və yaradıcılığı fonunda XX əsrdə kommunist ideologiyası şəraitində Azərbaycan memarlığının keçdiyi yol araşdırılır. Film müxtəlif beynəlxalq festivallarda iştirak edərək mükafatlara layiq görülüb.

***

***Türkiyə Yazarlar Birliyi başkanı Mehmet Kurtoğlunun təşəbbüsü ilə “Türkcənin 14-cü şeir şöləni”nin materialları əsasında “Türk Dünyası şeir güldəstəsi” kitabı işıq üzü görüb.***




Qardaş ölkədə geniş yayımlanan topluya ötən il poeziya bayramının iştirakçıları olmuş tanınmış Azərbaycan şairləri Ramiz Qusarçaylı və İbrahim İlyaslının da şeirləri daxil edilib.

*Ə.DOSTƏLİ, “Xalq qəzeti”*

Proqnoz



## Yağış, leysan yağacaq, dolu düşəcək, duman olacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyunun 23-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Gündüz arabir güclənən şimal-qərb küləyi əsəcək, axşam şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 17-22°, gündüz 25-29° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 70-80 , gündüz 50-60 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 21-22° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 23-24° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Axşam yağıntılar tədricən kəsiləcək. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 24-29°, dağlarda gecə 7-12°, gündüz 15-20° isti olacaq.

*Q.QASIMOV, “Xalq qəzeti”*

Sağlamlıq guşəsi

## Yaxşı yuxu–yeni yastıq

***Köhnə yastıq sağlamlıq problemləri yarada bilər. Əgər yuxuya getməkdə çətinlik çəkir, ləng oyanır, yuxulu olursunuzsa, başınız, boğaz və ya boyunda ağrılar olursa, deməli, yastığınızı dəyişməyin vaxtıdır.***

Somnoloqların (yuxu tədqiq edənlər) fikrincə, yuxu vəziyyətindən asılı olaraq yastığı hər il və ya ən azı, iki ildən bir dəyişmək lazımdır. Əks halda, yastıq nəinki bərkiyir, həm də saysız-hesabsız toz gənəsi üçün sığınacağa çevrilir.

Yastığınızı dəyişməzdən öncə onu yarıya qatlayın, bərk basın və sonra əlinizi çəkin. Yastıq əvvəlki formasına qayıdırsa, bu, onun hələ istifadəyə yararlı olduğunu göstərir. Əks halda yastığı dəyişməyin vaxtıdır. Bələ testi yuxudan durduqdan sonra başınız və boynunuz ağrıyarsa, mütləq aparmaq lazımdır.



İnsan həyatının üçdə birini yuxuda keçirdiyi üçün yastıq, təbii olaraq, bakteriyalar, ölü dəri hissəcikləri, yağ ifrazatları, toz, bütün bunlarla qidalanan gənələr üçün “yuva”ya çevrilir.

Bunlar sızanaq, boğaz ağrısı və allergiyaya səbəb ola bilər. Buna görə də, təxminən, 3 aydan bir yastıq paltaryuyan maşında yuyulmalıdır.

## Rahat yatmaq üçün...

***Yataqda uzanıb yata bilməmək vərdişlə də bağlı ola bilər. Somnoloqların fikrincə, yaxşı yatmaq istəyən bu qaydaları unutmamalıdır:***

**1. Məşq etməyin:** İdman etmək sağlamlıq üçün yaxşıdır. Bu, yuxu keyfiyyətini yaxşılaşdırır, çünki kifayət qədər məşq dərin yuxuya kömək edir. Lakin məşqlə yuxu arasında bir neçə saat ara olmalıdır. Əks halda, hərəkət yormur, əksinə, səni yenidən oyadır.



**2. Çox ədviyyatlı yemək olmaz:** Yaxşı yatmaq istəyirsinizsə, axşam saatlarında gec həzm olunan heç bir şey yeməyin. Ədviyyatlı yeməklər də qan dövranını stimullaşdırır və yuxuya getməyi çətinləşdirir.

**3. Spirtli heç nə içməyin:** Axşam saatlarında spirtli içki qəbul edənlər çox vaxt daha narahat yatırlar, onlar üçün dərin yuxuya getmək daha çətindir.

**4. Smartfon, planşet, televizordan uzaq durun:** Cihazların mavi işığı beyni aldadır. İnsan gündüz olduğunu düşünür və beləliklə, yuxu hormonu melatonin daha az ifraz olunur. Yatmazdan əvvəl televizora baxmamaq tövsiyə edilir.

*Zərifə HÜSEYNLİ,*
*“Xalq qəzeti”*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5171
SİFARİŞ 1558
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00